Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 10 (8033) ÇƏRŞƏNBƏ AXŞAMI, 15 yanvar 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Son 15 il ərzində ölkəmizdə 600-dən çox xəstəxana, tibb müəssisəsi ya yenidən tikilib, ya da əsaslı şəkildə təmir edilib



Yanvarın 14-də Bakının Qaradağ rayonunun Qobustan qəsəbəsində Səhiyyə Nazirliyinin yeni inşa olunan 17 saylı birləşmiş şəhər xəstəxanasının açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov və 17 saylı birləşmiş şəhər xəstəxanasının baş həkimi, Əməkdar həkim Elmira Rəfailova görülən işlər barədə məlumat verdilər. Bildirildi ki, 60 çarpayılıq dördmərtəbəli birləşmiş şəhər xəstəxanasının ərazisində təcili yardım stansiyası və digər binalar inşa olunub, zəruri infrastruktur yaradılıb.



Xəstəxananın yerləşdiyi ərazinin ümumi sahəsi 1,4 hektardır, tibb ocağının binasının ümumi sahəsi isə 8 min kvadratmetrə yaxındır.

Dövlətimizin başçısı xəstəxananın rəmzi açılışını bildirən lenti kəsdi.

Qeyd edildi ki, Qobustanda xəstəxana 1955-ci ildən fəaliyyətə başlayıb. Xəstəxana binalarının yararsız vəziyyətdə olması nəzərə alınaraq Prezident İlham Əliyevin 2011-ci il 6 aprel tarixli Sərəncamı ilə Qobustan qəsəbəsindəki 17 nömrəli birləşmiş şəhər xəstəxanasının yenidən qurulması üçün maliyyə vəsaiti ayrılıb. Aparılan inşaat işləri zamanı köhnə xəstəxananın yerləşdiyi binalar tam sökülüb və onların yerində müasir standartlara cavab verən yeni xəstəxana binası inşa edilib.

Xəstəxana binasında ümumi qəbul, funksional diaqnostika, pediatriya, mama-ginekologiya, travmatologiya, cərrahiyyə və doğum şöbələri, rentgen, terapevt, EKQ, otorinolarinqoloq, oftalmoloq, stomatoloq kabinetləri, əczaxana yaradılıb. Tibb müəssisəsində, eyni zamanda, ümumi terapiya, reanimasiya şöbələri, böyüklər və uşaqlar üçün palatalar, laboratoriyalar var. Xəstəxananın hemodializ və fizioterapiya şöbələrində müasir avadanlıq quraşdırılıb, bütün şöbələr və bölmələr arasında birbaşa əlaqələr mövcuddur. Bu isə həm həkimlərin, həm də xəstələrin rahatlığını təmin etmək baxımından böyük rol oynayır. Xəstəxana binasında istirahət və gözləmə guşələri də yaradılıb. Tibb müəssisəsinin müşavirə zalı və yeməkxanası da var. Xəstəxana binası yüksək zövq və keyfiyyətlə inşa olunub. Tibbi heyət köhnə xəstəxana binasında gün ərzində 80-90 xəstəyə xidmət göstərə bilirdisə, yeni binada gün ərzində 200-300 xəstəyə tibbi xidmət göstərmək mümkündür. Yeni xəstəxana binasının istifadəyə verilməsindən sonra burada 200-250 həkim, orta və kiçik tibb heyəti və yardımçı işçilərin işlə təmin olunması nəzərdə tutulur.

Səhiyyə sisteminin təkmilləşdirilməsi, bu sahənin müasirləşdirilməsi və inkişafı son illərdə ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətində mühüm yerlərdən birini tutur.

*Ardı 2-ci səh.*



## YENİ HƏDƏFLƏRƏ DOĞRU

### Düşünülmüş, ardıcıl və məqsədyönlü siyasət 2018-ci ili də uğurlu mərhələyə çevirdi

**2018-ci il arxada qaldı!**

**Bəs geriyə baxanda yenicə yola saldığımız ili necə görürük?**

**Əslində, tarixə qovuşan 2018-ci il də son 15 ildən fərqlənməyib! Həm də yaxşı mənada!**

*Belə ki, yenə də ölkəmiz inkişaf edib, yenə də Azərbaycanda mühüm beynəlxalq tədbirlər, görüşlər, idman yarışları keçirilib, yenə də Prezident İlham Əliyev dünyanın müxtəlif dövlətlərinə və regionlara çoxsaylı səfərlər keçirib, yüksək ranqlı qonaqları qəbul edib, Azərbaycanın iqtisadi gücü və siyasi nüfuzu daha da artıb...*

**Arxaya baxanda maraqlı bir sual da yaranır: Azərbaycana bu böyük hörmət, diqqət, etibar və inam nədən qaynaqlanır?**

***Əlbəttə,*** ölkəmizə ən böyük hörməti qazandıran ilk növbədə onun müstəqil, balanslı, qarşılıqlı hörmətə və maraqlara əsaslanan siyasət yürütməsidir!

***İkincisi,*** təkcə qonşularına deyil, dünyanın digər ölkələrinə də böyük fayda gətirən transmilli layihələri gerçəkləşdirməsi, orada iştirakı hamı üçün maraqlı və gəlirli etməsidir.

***Üçüncüsü,*** Prezident İlham Əliyevin xarizmatik şəxsiyyət olması, daim sözünə sahiblik etməsi, qısa müddətdə insanlarla xoş, inam və etibara əsaslanan ünsiyyət qurmasıdır!

***Dördüncüsü,*** Azərbaycanın daim sülh siyasəti yeritməsi, qlobal dünyanı düşündürən, narahatlıq doğuran problemlərin səmərəli, praktik müzakirəsini təşkil etməsi, dəyərli təkliflər irəli sürməsi və konkret nümunələr, modellər göstərməsidir.

***Ən nəhayət,*** ölkəmizə bir dəfə gələnlərin, dövlət başçısı ilə ünsiyyət quranların yenidən belə görüşlərə can atması, Azərbaycanla əməkdaşlıqdan hamının fayda götürüb maddi və mənəvi baxımdan nə isə qazanması, bizimlə əməkdaşlığın və birgə fəaliyyətin səmərəli və uğurlu olmasına qısa müddətdə əminlik hasil etməsidir!

❖ ❖ ❖

Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyev bütövlükdə ötən il ərzində görülən işlərə və qazanılan nəticələrə müfəssəl şəkildə toxunmuşdur. Dünyada gedən proseslərin fonunda Azərbaycanın uğurlarından danışaraq baş verənləri dərindən təhlil edən cənab İlham Əliyev maraqlı məqamlardan söz açmışdır.

*Gənc, müstəqil dövlət olaraq Azərbaycanın ən böyük uğuru ölkədəki möhkəm və dönməz sabitlikdir!*

Bu sabitliyin özəyində xalqla iqtidarın vəhdəti dayanır: iqtidar daim xalqın istəyini gerçəkləşdirir, rifahını durmadan yüksəldir. Xalq isə arzularının reallaşmasını təmin edən iqtidarı dəstəkləyir, hər dəfə prezident seçkilərində bu dəstəyini seçki qutusuna atdığı səsvermə bülletenlərində ifadə edir.

**Bu birliyin nəticəsi isə bugünkü möhtəşəm Azərbaycan, onun bütün sahələrdə qazandığı ürəkaçan nailiyyətlərdir!**

Prezident İlham Əliyev ictimaiyyətin nümayəndələri ilə görüşlərində, mətbuata açıqlamalarında həmin məqamları xüsusi vurğulayır. Nazirlər Kabinetinin iclasında da yaddaqalan məsələlərə bir daha diqqət çəkildi.

❖ ❖ ❖

*“2018-ci il ölkəmiz üçün uğurlu il olmuşdur. Dünyada və bölgəmizdə gedən proseslərdən asılı olmayaraq, Azərbaycan uğurla, sürətlə inkişaf etmişdir. Keçən ilin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr icra olunmuşdur, ölkəmizin hərtərəfli dinamik inkişafı təmin edilmişdir.*

*Azərbaycan inkişaf, tərəqqi, sabitlik ölkəsidir. Dünyada və bölgədə gedən proseslərdən asılı olmayaraq Azərbaycan öz müstəqil yolu ilə, inkişaf yolu ilə uğurla gedir və gedəcək”.*

Bəli, Prezident, həmişəki kimi, haqlıdır.

Dünyanın çalxalandığı, qana bulaşdığı bir vaxtda Azərbaycan illərdir ki, sabitlik və əmin-amanlıq adasını xatırladır.

*Ardı 4-cü səh.*



## İlham Əliyev qlobal erməni korrupsiya şəbəkəsini ifşa etdi

### “Ermənistanın keçmiş rəhbərləri cinayətkardır, qəhrəmanları qorxaqdır, generalları oğrudur”

Bu gün Azərbaycan sarsılmaz sabitlik şəraitində ictimai-siyasi, sosial-iqtisadi inkişafının yeni yüksəliş dövrünü yaşamaqdadır. Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmiz dünya miqyasında sürətlə inkişaf edən lider ölkələr sırasında öz layiqli yerini tutmaqdadır. Bütün sahələrdə əldə edilən yüksək nəticələr ölkəmizi getdikcə daha güclü etməkdə, xalq-iqtidar birliyi Azərbaycanı yenilməz dövlətə çevirməkdədir.

İşğalçı Ermənistanda isə bunun tam əksi müşahidə olunur. İqtisadi tənəzzül daha da dərinləşib, ölkənin xaricdən iqtisadi asılılığı artıb. Xarici borc çoxalıb və onu qaytarmaq üçün ölkə lazımi resurslara malik deyil. Burada bir məqamı xüsusi qabartmaq lazım gəlir ki, Ermənistanın belə acınacaqlı vəziyyətə düşməsinin ümdə səbəbi işğalçılıq siyasətidir və bunun nəticəsində Azərbaycanın, onun liderinin təcavüzkara qarşı gördüyü tədbirlərdir.

#### Azərbaycanın xarici siyasətdə növbəti nailiyyəti

Ötən ilə nəzər yetirdikdə şahidi oluruq ki, Azərbaycan Ermənistanın siyasi iflasını uğurla həyata keçirib. İştirak edilən beynəlxalq tədbirlər, sammitlər lazımi nəticə ilə yekunlaşıb: İlham Əliyev Ermənistan rəhbərliyini ifşa edib, onu rəzil hala salıb və dünya erməniliyinin əsl məkrli mahiyyətini danılmaz faktlarla göstərib.

Azərbaycan Prezidentinin səfərləri, keçirilən görüşlər və imzalanan sənədlər bu fonda Azərbaycanın xarici siyasətində yeni uğur kimi qəbul olunub.

Xatırladaq ki, Avropa İttifaqı və Azərbaycan arasında imzalanan Tərəfdaşlıq Prioritetləri Sənədində Avropa İttifaqı tərəfindən növbəti dəfə Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə dəstək ifadə edildi. NATO-ya üzv ölkələrin liderlərinin Brüsseldəki sammitinin yekunlarına dair bəyannaməsində yer alanlar da Ermənistan üçün daha bir diplomatik zərbə oldu.

*Ardı 4-cü səh.*

# Son 15 il ərzində ölkəmizdə 600-dən çox xəstəxana, tibb müəssisəsi ya yenidən tikilib, ya da əsaslı şəkildə təmir edilib





*Əvvəli 1-ci səh.*

Heydər Əliyev Fondu səhiyyə sahəsində həyata keçirilən dövlət siyasətinə dəyərli töhfələr verir. Fəaliyyəti dövründə Fondun təşəbbüsü ilə müxtəlif səhiyyə müəssisələrinin, o cümlədən xəstəxanaların, Müalicə-Diaqnostika, Reabilitasiya mərkəzlərinin, poliklinikaların inşası həyata keçirilib, səhiyyə ocaqları əsaslı təmir olunub və lazımi avadanlıqla təmin edilib. Fondun gələcəyimiz olan uşaqların sağlamlığı üçün atdığı addımlar görülən işlərin tərkib hissəsidir. Diabetli uşaqlara ən yüksək qayğı, talassemiyasız həyat naminə layihələr və Fond tərəfindən həyata keçirilən digər tədbirlər, ilk növbədə, vətəndaşlarımızın sağlamlığının qorunması, uşaqların sağlam böyüməsi kimi mühüm və nəcib məqsədə xidmət edir. Bu gün Azərbaycanda səhiyyənin inkişafı bir çox sahədə özünü aydın büruzə verir. Bu, istər yeni tibb ocaqlarının inşası, istər mövcud xəstəxana və tibb mərkəzlərinin bərpası, istərsə də tibb müəssisələrinin ən müasir avadanlıqla təchiz edilməsində özünü daha qabarıq göstərir. Bütün bunlar sübut edir ki, Azərbaycan vətəndaşlarının hərtərəfli tibbi xidmətlə təmin edilməsi istiqamətində icra olunan layihələri dövlət başçısı daim nəzarətdə saxlayır. Bu layihələr, eyni zamanda, vətəndaşlarımızın məhz ölkəmizdə yüksək səviyyəli tibbi xidmətlərdən yararlanması ilə bağlı görülən mühüm işlərin davamlı olduğunu göstərir.

Sonra dövlət başçısı tibb müəssisəsinin kollektivi ilə görüşdü.

Prezident **İlham ƏLİYEV** dedi:

- Bu gün Qaradağ rayonunun Qobustan qəsəbəsində çox gözəl hadisə baş verir, çox əlamətdar bir gündür. Biz yeni tikilmiş gözəl xəstəxananın açılışını birlikdə qeyd edirik. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm.

Çox gözəl binadır, çox gözəl şərait yaradılıb, ən müasir avadanlıq quraşdırılıb. Binanın sahəsi də çox böyükdür və əminəm ki, burada xəstələrə ən yüksək tibbi xidmət göstəriləcəkdir. Mən buraya gələrkən girişdə mənə xəstəxananın əvvəlki şəkilləri, görüntüləri göstərildi. Siz, burada işləyən həkimlər, tibb işçiləri yaxşı bilirsiniz ki, əvvəlki xəstəxananın vəziyyəti çox ağır, bərbad idi. Bu, təbiidir, çünki xəstəxana 50-ci illərin əvvəllərində fəaliyyətə başlamışdı və uzun müddət təmirsiz qalmışdı. Mən xatırlayıram, bir neçə il bundan əvvəl Qobustan qəsəbəsində olarkən mənə xəstəxananın baş həkimi müraciət etmişdi ki, yeni xəstəxana tikilsə, yaxşı olar. Mən də dərhal göstəriş verdim, vəsait ayırdıq və bu gün bu gözəl xəstəxananın açılışında biz birlikdə iştirak edirik. Onu da xatırlayıram ki, o səfərdə bir neçə xahiş irəli sürülmüşdü. Onların arasında mədəniyyət evinin, məktəbin, poliklinikanın və xəstəxananın tikilməsi təklifləri var idi və hər biri icra edildi. Yəni, qəsəbənin və rayonun sakinlərinin xahişləri ən yüksək səviyyədə yerinə yetirildi. Bu gün bu gözəl xəstəxana, ilk növbədə, bizim siyasətimizi əks etdirir. Onu göstərir ki, insan sağlamlığı bizim üçün ən başlıca məsələlərdən biridir, digər tərəfdən onu göstərir ki, yerlərdən, vətəndaşlardan gələn hər bir təklifə baxılır və imkan daxilində bu təkliflər təmin edilir, onlar yerinə yetirilir. Bu canlı təmas hesab edirəm ki, bizim uğurlarımızın təməlində dayanan ən vacib amillərdən biridir və mənim vətəndaşlarla müntəzəm görüşlərim, rayonlara səfərlərim, - təkcə keçən il 24 rayona səfər etmişəm, - Bakı qəsəbələrinin problemlərinin həlli ilə bağlı atılan addımlar və yerlərdən gələn təkliflərə müsbət yanaşılması bizim uğurlu inkişafımızı təmin edir. Əgər o vaxt mənim qarşımda bu məsələ qaldırılmasaydı, bəlkə də indi bu xəstəxana da tikilməyəcəkdi. Ona görə, mən həmişə deyirəm ki, insanları narahat edən, həlli vacib olan məsələlər daim məruzə edilsin, məlumat verilsin ki, biz bu məsələləri həll edək.

Qobustan xəstəxanasının timsalında biz inkişafda olan ölkəmizin dinamik addımlarını görürük. Bu gün Azərbaycan dünya miqyasında seçilən ölkələrdəndir ki, burada həm iqtisadi, həm sosial və bütün başqa məsələlər uğurla öz həllini tapır. Sosial məsələlərin arasında, əlbəttə ki, səhiyyə sisteminin inkişafı xüsusi yer tutur. Çünki bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır və hər bir insan üçün onun sağlamlığı, onun yaxınlarının sağlamlığı xüsusi əhəmiyyət daşıyır. Biz çalışırıq və çalışacağıq ki, bu sahədə bütün lazımi tədbirləri görək. Onu da bildirməliyəm ki, təkcə son 15 il ərzində ölkəmizdə 600-dən çox xəstəxana, tibb müəssisəsi ya yenidən tikilib, ya da əsaslı şəkildə təmir edilib. Ölkəmizin hər bir şəhərində və ya onların mütləq əksəriyyətində müasir xəstəxanalar artıq tikilib və bir neçə şəhərdə tikinti işləri davam edir. Yaxın gələcəkdə Azərbaycanda elə bir şəhər olmayacaq ki, orada ən müasir tibbi mərkəz olmasın.

Siz yaxşı bilirsiniz ki, 5 milyondan çox insan hər il dövlət xətti ilə tibbi müayinədən keçir. Bu, bizim təşəbbüsümüzdür və dünyanın nadir ölkələrində belə təşəbbüs həyata keçirilir. Bunun da bir məqsədi var ki, vətəndaşlar, əgər onların sağlamlığında hər hansı bir problem varsa, onu vaxtında aşkar etsinlər və yüksək səviyyəli müalicə alsınlar. Bu proqram nəticəsində minlərlə insan artıq lazımi səviyyədə müalicə alır.

Diaqnostika və müalicə bir-biri ilə vəhdət təşkil edir. Bu xəstəxanada həm diaqnostika, həm də poliklinika şöbəsi, təcili yardım stansiyası və əməliyyat aparmaq üçün imkanlar, doğum şöbəsi var. Mənə məlumat verildi ki, bu məsələ ilə bağlı ciddi problemlər var idi və bu bölgədə doğum şöbəsi yox idi. Siz onu da yaxşı bilirsiniz ki, bu xəstəxana ətraf qəsəbələrə də xidmət göstərəcək, on minlərlə insan bu imkanlardan istifadə edəcək. Əlbəttə ki, bu xəstəxanada dializ şöbəsinin yaradılması xüsusi məna daşıyır. Çünki mənə verilən məlumata görə, burada böyrək xəstələri var ki, onlar da müntəzəm olaraq Bakıya dializ almaq üçün getməli olurdular. Bu da həm məsrəfdir, həm də narahatlıqdır, əziyyətdir. Ona görə, burada indi dializ şöbəsinin yaradılması bu insanlara da böyük dəstək olacaq, onlar öz sağlamlığını burada bərpa edəcəklər.






Biz bütün bunları, bütün bu işləri ona görə görürük ki, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar və onları narahat edən məsələlər öz həllini tapsın. Əlbəttə ki, buna nail olmaq üçün güclü iqtisadiyyat olmalıdır və biz bu iqtisadiyyatı qururuq. Keçən ilin nəticələri, - bir neçə gün bundan əvvəl bu barədə mən xalqa hesabat verdim, - çox müsbətdir. Bu, onu göstərir ki, biz düzgün yoldayıq, biz uğurla inkişaf edirik və ölkəmiz öz hesabına, öz daxili imkanları hesabına bütün lazım olan məsələləri həll edir, həm sosial, həm iqtisadi, infrastrukturla bağlı və digər məsələləri. Əminəm ki, gələcək illərdə, o cümlədən əlbəttə ki, 2019-cu ildə biz bu müsbət dinamikanı saxlayacağıq, ölkəmiz uğurla inkişaf edəcək və bütün məsələlər öz həllini tapacaq.

Mən sizi bir daha bu gözəl hadisə münasibətilə təbrik edirəm və həkimlərə uğurlar arzulayıram. Həkimlər üçün gözəl iş yeri yaradılıbdır ki, siz burada xəstələrə yaxşı xidmət göstərəsiniz. Sağ olun.

* * *

Xəstəxananın baş həkimi, əməkdar həkim **Elmira RƏFAİLOVA** yaradılan şəraitə görə dövlət başçısına minnətdarlığını bildirərək dedi:

- Möhtərəm cənab Prezident, hörmətli Mehriban xanım, biz sizi bir daha salamlayırıq, rayonumuza xoş gəlmisiniz. Bu gün Qobustan qəsəbəsi və bütün Qaradağ rayonu sevinc içərisindədir. Keçən əsrin 50-ci illərində tikilmiş 17 saylı birləşmiş şəhər xəstəxanası yararsız vəziyyətə düşdüyündən Siz dərhal sərəncam verdiniz, xəstəxana söküldü və yerində yenisi tikildi. Bu müasir, gözəl tibbi cihazlarla təmin olunmuş xəstəxananı bu gün bizə hədiyyə edirsiniz. Bu hədiyyəyə görə Sizə böyük minnətdarlığımızı bildirmək istəyirik. Bu, şəxsən Sizin və Mehriban xanımın tibb sahəsinə olan qayğınızın nəticəsidir.

Dörd ildən artıqdır ki, Sizin sərəncamınıza əsasən ildə bir dəfə əhalinin dispanserizasiyası keçirilir, bu aksiya xəstəliklərin aşkar edilməsinə və profilaktikasına böyük kömək edir. Belə bir növbəti dispanserizasiya bu gözəl binada daha səmərəli və keyfiyyətli keçəcək. Xüsusilə vurğulamaq istəyirəm ki, bizim xəstəxanada hemodializ və travmatologiya şöbələri Qaradağ rayonu tarixində ilk dəfə fəaliyyət göstərəcək. Nəinki bizim qəsəbəyə, ətrafdakı rayonlara, 50-60 min əhaliyə xidmət göstərmək imkanımız var. Bütün cihazlarımız, hər bir imkanımız var. Biz Sizə söz veririk ki, xalqımıza vicdanla, keyfiyyətlə xidmət edəcəyik.

Kollektivimiz adından və Qobustan qəsəbəsi sakinləri adından, bütün Qaradağ rayonu adından Sizə böyük minnətdarlıq edirik. Sizə və ailə üzvlərinizə cansağlığı, Azərbaycan naminə yorulmaz fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirik. Allah Sizi və Sizin ailənizi qorusun. Çox sağ olun.

Prezident **İlham ƏLİYEV:**

**-** Sağ olun.

Qobustan qəsəbəsi Ağsaqqallar Şurasının sədri **Allahverdi MƏMMƏDOV** dedi:

- Cənab Prezident, Qobustana ikinci dəfədir gəlirsiniz. Sizin gəlişiniz bizim üçün bayramdır. Bu bayramı bizə nəsib etdiyinizə görə Sizə minnətdarıq.

Qobustan qəsəbəsinin əhalisi adından, ağsaqqallar, ziyalılar adından Sizə "Xoş gəlmisiniz!" deyirik, Sizə uğurlar, cansağlığı arzulayırıq. Allah Sizi bizə çox görməsin.

Prezident **İlham ƏLİYEV:**

- Çox sağ olun, Qobustan qəsəbəsinin, bütün Qaradağ rayonunun sakinlərinə salamlarımı çatdırın. Bilirsiniz ki, məni Qaradağ rayonu ilə uzun tarix birləşdirir. Mən öz siyasi fəaliyyətimi buradan başlamışam.

**Allahverdi MƏMMƏDOV:**

- Mehriban xanım bizim Qobustan qoruğunu 2007-ci ildə UNESCO-ya daxil edib. Bizim bu Qobustanı dünyaya tanıtdırdığı üçün sevimli Mehriban xanıma minnətdarıq.

**Mehriban ƏLİYEVA:**

- Çox sağ olun.

**Allahverdi MƏMMƏDOV:**

- Qəsəbəmizin sakinləri adından Sizə də minnətdarlığımızı bildiririk, cənab Prezident, çox sağ olun.

Prezident **İlham ƏLİYEV:**

- Çox sağ olun.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

# Azərbaycan gömrük sisteminin dünyanın ən şəffaf gömrük sistemlərindən biri olmasını istəyir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 14-də Ümumdünya Gömrük Təşkilatının baş katibi Kunio Mikuriyanı qəbul edib.



AZƏRTAC xəbər verir ki, Ümumdünya Gömrük Təşkilatının baş katibi Kunio Mikuriya, ilk növbədə, dövlət başçısına ötən il prezident seçkilərində qələbəsi münasibətilə təbriklərini çatdırdı. O, eyni zamanda, Ümumdünya Gömrük Təşkilatının baş katibi vəzifəsinə seçkilərdə Azərbaycanın verdiyi dəstəyə görə minnətdarlığını bildirdi.

Təbriklərə görə təşəkkür edən Prezident İlham Əliyev, öz növbəsində, Kunio Mikuriyanı Ümumdünya Gömrük Təşkilatının baş katibi vəzifəsinə seçilməsi münasibətilə təbrik etdi. Dövlət başçısı bunu onun səmərəli fəaliyyətinə verilən qiymət kimi dəyərləndirərək ölkəmizin Kunio Mikuriyanın rəhbərliyi ilə Ümumdünya Gömrük Təşkilatında həyata keçirilən işləri yüksək qiymətləndirdiyini dedi. Prezident İlham Əliyev hazırda Azərbaycanda bütün istiqamətlərdə, o cümlədən gömrük sahəsində genişmiqyaslı islahatların həyata keçirildiyini və bunun artıq çox yaxşı nəticələr verdiyini vurğuladı. Dövlət başçısı qeyd etdi ki, o, Azərbaycan gömrük sisteminin dünyanın ən şəffaf gömrük sistemlərindən biri olmasını istəyir və Ümumdünya Gömrük Təşkilatının bu məqsədə çatmaq işində bizə kömək göstərməyi davam etdirəcəyinə ümidvar olduğunu bildirdi.

Ümumdünya Gömrük Təşkilatının baş katibi Kunio Mikuriya Azərbaycan gömrük sisteminin nümunəvi bir qurum olduğunu və Ümumdünya Gömrük Təşkilatının standartlarına uyğun fəaliyyət göstərməsini yüksək qiymətləndirdi. Kunio Mikuriya xüsusilə Azərbaycanın korrupsiya ilə mübarizənin, beynəlxalq standartlara cavab verən texnologiyaların tətbiqinin və əlverişli biznes mühitinin yaradılmasının gömrük orqanlarının şəffaf fəaliyyəti üçün mühüm əhəmiyyət daşıdığını dedi və görülən bütün bu işlərin onda böyük təəssürat doğurduğunu qeyd etdi.

Xoş sözlərə görə minnətdarlığını bildirən dövlət başçısı Azərbaycanda korrupsiya ilə mübarizənin ən prioritet istiqamətlərdən biri olduğunu dedi. Prezident İlham Əliyev gömrük orqanlarında həyata keçirilən ardıcıl tədbirlər nəticəsində şəffaflığın əldə edildiyini və gömrükdən daxil olan rüsumların planlaşdırıldığından da artıq olduğunu bildirdi. Azərbaycanda biznes fəaliyyəti üçün əlverişli mühitin daha da yaxşılaşdığını qeyd edən dövlət başçısı Dünya Bankı tərəfindən Azərbaycanın 10 ən çox islahatçı ölkələr sırasına daxil edildiyini, Dünya Bankının “Doing Business” hesabatında 57-ci yerdən 32 pillə irəliləyərək 25-ci yerdə qərarlaşmasını önəmli hadisə kimi dəyərləndirdi. Prezident İlham Əliyev Azərbaycanda genişmiqyaslı islahatların qarşıdakı illərdə də davam etdiriləcəyini vurğulayaraq, ölkəmizin Ümumdünya Gömrük Təşkilatı ilə bundan sonra da səmərəli əməkdaşlıq həyata keçirəcəyinə əminliyini ifadə etdi.

# Azərbaycan ilə Ümumdünya Gömrük Təşkilatı arasında əməkdaşlıq məsələləri müzakirə olunub

Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov yanvarın 14-də Ümumdünya Gömrük Təşkilatının baş katibi Kunio Mikuriya ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, Kunio Mikuriyanı Ümumdünya Gömrük Təşkilatının baş katibi vəzifəsinə seçilməsi münasibətilə təbrik edən Baş nazir Azərbaycan ilə təşkilat arasında uzunmüddətli uğurlu əməkdaşlığın olduğunu vurğulayıb. Bildirib ki, gənc ölkə olmasına baxmayaraq, Azərbaycan Ümumdünya Gömrük Təşkilatına uğurla inteqrasiya edib. Bu məsələdə Kunio Mikuriyanın xüsusi rolunu qeyd edən Novruz Məmmədov onun ölkəmizə səfərinin əlaqələrin daha da genişləndirilməsi baxımından önəmli olacağına əminliyini bildirib.

Kunio Mikuriya da öz növbəsində, Novruz Məmmədovu Azərbaycanın Baş naziri təyin olunması münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb. Ümumdünya Gömrük Təşkilatının Azərbaycanda dörd regional mərkəzinin fəaliyyət göstərdiyini qeyd edən baş katib deyib ki, ölkəmiz təşkilatın ən fəal üzvlərindən biridir və qurumun işinə mühüm töhfə verir.

Azərbaycanın Ümumdünya Gömrük Təşkilatının standartlarını uğurla tətbiq etdiyini söyləyən Kunio Mikuriya ölkəmizlə səmərəli əməkdaşlığın daha da genişləndirilməsi üçün səylərini əsirgəməyəcəyini deyib.

Söhbət zamanı Azərbaycan ilə Ümumdünya Gömrük Təşkilatı arasındakı əməkdaşlığın gələcək inkişafına və qarşılıqlı maraq doğuran digər məsələlərə dair müzakirələr aparılıb.

# Azərbaycan Gömrük Xidməti ilə Ümumdünya Gömrük Təşkilatının əməkdaşlıq əlaqələri nəzərdən keçirilib

Azərbaycan Gömrük Xidməti ilə Ümumdünya Gömrük Təşkilatının (ÜGT) əməkdaşlıq əlaqələri müzakirə edilib. AZƏRTAC xəbər verir ki, müzakirələr yanvarın 14-də Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev ilə ölkəmizdə səfərdə olan Ümumdünya Gömrük Təşkilatının baş katibi Kunio Mikuriyanın görüşündə aparılıb.

Görüş iştirakçıları əvvəlcə Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyub. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri düzülüb. Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman vətən övladlarının məzarları üzərinə tər çiçəklər düzülüb, “Əbədi məşəl” abidəsinin önünə əklil qoyulub.

S.Mehdiyev Kunio Mikuriyanın yenidən Ümumdünya Gömrük Təşkilatının baş katibi seçildikdən sonra ilk səfərini Azərbaycana etməsindən məmnunluğunu bildirib, ÜGT ilə Azərbaycan gömrüyü arasında hər zaman səmərəli əməkdaşlıq əlaqələrinin qurulduğunu deyib. Vurğulayıb ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan müstəqil Azərbaycan gömrüyü bu gün Prezident İlham Əliyevin yüksək idarəçilik qabiliyyəti, həyata keçirdiyi davamlı inkişaf strategiyası nəticəsində dünya gömrük ailəsinin etibarlı üzvü kimi formalaşıb.

Komitə sədri Azərbaycan gömrüyünün ÜGT-nin müxtəlif komitələrində təmsil olunmasını, Dövlət Gömrük Komitəsi əməkdaşının təşkilatda mühüm vəzifələrdən birinə təyin edilməsini iki qurum arasındakı səmərəli əlaqələrin nəticəsi kimi qiymətləndirib. Qeyd olunub ki, fevralın 1-dən tam şəkildə tətbiq olunacaq “Yaşıl dəhliz” buraxılış sistemi idxal-ixrac əməliyyatlarının sürətli və maneəsiz şəkildə həyata keçirilməsinə, ticarətin asanlaşdırılmasına, ticarət-təchizat zəncirinin təhlükəsizliyinin təmin edilməsinə, vətəndaş-məmur təmasının minimuma endirilməsinə və könüllü riayət prinsipinin formalaşmasına mühüm töhfə verəcək.

Azərbaycanın Ümumdünya Gömrük Təşkilatının ən fəal üzvlərindən biri olduğunu deyən K.Mikuriya ÜGT-nin bir neçə orqanının ölkəmizdə yerləşməsini qarşılıqlı səmərəli əlaqələrin, Azərbaycan gömrüyünün beynəlxalq səviyyədə gömrük işinə verdiyi töhfələrin nəticəsi kimi qiymətləndirib. O, Azərbaycan gömrüyünün şəffaflığın təmin olunması sahəsindəki təcrübəsini ÜGT-nin müvafiq komitələri ilə bölüşməyə çağırıb.

Daha sonra Dövlət Gömrük Komitəsinin Texnoloji İnnovasiyalar və Statistika Baş İdarəsi rəisinin birinci müavini Anar Süleymanov gömrük sistemində aparılan islahatlar, onların əhəmiyyəti və gömrük orqanlarının gələcək hədəflərinə dair təqdimatla çıxış edib.

# “Azərsilah” Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

İqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması və strukturunun təkmilləşdirilməsi baxımından sənayenin inkişafı ölkədə aparılan iqtisadi siyasətin əsas prioritetlərindən biridir.

Son illərdə qlobal iqtisadi çağırışlara uyğun olaraq bu sahədə həyata keçirilmiş, konkret hədəflərə yönəlmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə iqtisadiyyatın digər sektorları kimi sənaye infrastrukturu da təkmilləşdirilmiş, sənayenin üstün artımı təmin edilmiş, bu sahənin modernləşdirilməsi və strukturunun təkmilləşdirilməsi, qeyri-neft sənayesinin ixrac potensialının artırılması və yüksək əlavə dəyər yaradan rəqabətqabiliyyətli sənaye istehsalının genişləndirilməsi istiqamətində mühüm tədbirlər görülmüşdür.

Bununla yanaşı, qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın ixrac qabiliyyətinin, eləcə də rəqabətqabiliyyətli, idxalı əvəz edən sənaye məhsullarının istehsalının artırılması, eyni zamanda, ölkənin müdafiə siyasətinin başlıca istiqamətlərindən olan müdafiə sənayesinin müasir tələblərə uyğunlaşdırılması və ordunun hərbi-texniki təchizatında kəmiyyət və keyfiyyət göstəricilərinin daxili istehsal hesabına yüksəldilməsi bu sahədə fəaliyyət göstərən yüksək inkişaf potensialına malik müəssisələrin qabaqcıl təcrübə və texnologiyalar əsasında modernləşdirilməsinin həyata keçirilməsini, qabaqcıl korporativ idarəetmə təcrübəsi tətbiq edilməklə, mövcud iqtisadi konyunkturada rəqabətədavamlılığının artırılmasını zəruri edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə dövlət idarəetmə strukturunu optimallaşdırmaq, müdafiə sənayesinin inkişafının dayanıqlılığını təmin etmək, bu sahədə idarəetmə mexanizmlərini daha təkmilləşdirmək, habelə sənayeləşmənin yeni mərhələsində mövcud potensialdan səmərəli istifadə etməklə Azərbaycanın regionda silah istehsal edən əsas sənaye mərkəzlərindən birinə çevrilməsinə nail olmaq məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyinin əsasında “Azərsilah” Açıq Səhmdar Cəmiyyəti (bundan sonra - Cəmiyyət) yaradılsın.

2. Cəmiyyətdə ümumi yığıncağının səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

2.1. Azərbaycan Respublikasının Prezidentinə:

2.1.1. Cəmiyyətin nizamnaməsinin və strukturunun təsdiqi, nizamnamə kapitalının miqdarının müəyyən edilməsi;

2.1.2. Cəmiyyətin İdarə Heyəti sədrinin və sədr müavinlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi, habelə onların səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi;

2.1.3. Cəmiyyətin yenidən təşkili və ləğvi;

2.2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

2.2.1. bu fərmanın 2.1-ci bəndində qeyd edilənlər istisna olmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə ümumi yığıncağın səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

3. Müəyyən edilsin ki:

3.1. Cəmiyyət qabaqcıl texnologiyaları tətbiq etməklə Azərbaycan Respublikasında silah istehsalını, ixracını, onların ölkə daxilində və xaricdə satışının təşkilini həyata keçirən, müasir menecment və korporativ idarəetmə standartları əsasında tabeliyində olan müəssisələrin fəaliyyətinin əlaqələndirilməsini və bu sahənin inkişafı ilə bağlı digər işləri yerinə yetirən kommersiya hüquqi şəxsidir;

3.2. Cəmiyyətin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti üç üzvdən - Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi İdarə Heyətinin sədrindən və onun iki müavinindən ibarət İdarə Heyəti həyata keçirir.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. üç ay müddətində:

4.1.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.1.3. Cəmiyyətin nizamnaməsinin layihəsini, strukturu, o cümlədən nizamnamə kapitalının miqdarı barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.1.4. Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyinin tabeliyindəki müəssisələrin Cəmiyyətin tabeliyinə verilməsi, habelə beynəlxalq təcrübə nəzərə alınmaqla, onların fəaliyyətində səmərəliliyinin daha da artırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.1.5. Cəmiyyətin balansına veriləcək aktivləri fəaliyyət profilinə uyğun olaraq təsnifləşdirsin, onun fəaliyyət istiqamətləri ilə uzlaşmayan və ya problemli aktivləri müəyyən etsin və beynəlxalq təcrübə nəzərə alınmaqla, həmin aktivlərin mərhələli şəkildə Cəmiyyətin balansından çıxarılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.1.6. Cəmiyyətin tabeliyinə veriləcək müəssisələrin infrastruktur təminatının yaxşılaşdırılması ilə bağlı tədbirlər görsün və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.2. bu fərmanın 5-ci hissəsində nəzərdə tutulmuş gündən:

4.2.1. Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyinin normativ hüquqi aktlarına münasibətdə “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununun 7.2-ci maddəsində nəzərdə tutulmuş səlahiyyəti Cəmiyyətin təklifləri əsasında həyata keçirsin və nəticəsi barədə üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.2.2. Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyinin balansında olan dövlət əmlakının Cəmiyyətin balansına verilməsini bir ay müddətində təmin etsin və nəticəsi barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.4. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Cəmiyyət “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı günədək Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi öz fəaliyyətini davam etdirsin.

6. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 yanvar 2019-cu il*

# Parisdə Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin görüşü olacaq

Azərbaycan Respublikası xarici işlər naziri Elmar Məmmədyarov və Ermənistan Respublikası xarici işlər nazirinin vəzifəsini icra edən Zöhrab Mnatsakanyan arasında ATƏT-in Minsk qrupunun həmsədrlərinin (İqor Popov - Rusiya Federasiyası, Stefan Viskonti - Fransa və Əndrü Sxofer - ABŞ) vasitəçiliyi ilə yanvarın 16-da Parisdə görüş keçiriləcək. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə ATƏT-in Fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Andjey Kaspşik də iştirak edəcək.

Görüşdə Ermənistan-Azərbaycan münaqişəsinin həlli üzrə danışıqlar prosesi müzakirə olunacaq.

# Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında dövlət idarəçiliyini daha da təkmilləşdirmək, dövlət orqanlarının və qurumlarının fəaliyyətini optimallaşdırmaq və dövlət büdcəsi vəsaitindən səmərəli istifadəni təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin fəaliyyətləri özünümaliyyələşdirmə prinsipi əsasında həyata keçirilməklə yenidən təşkil edilsin.

2. Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi ləğv edilsin, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın Katibliyi, Azərbaycan Respublikasının Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi Qrupu, habelə Azərbaycan Respublikasının Tarif (qiymət) Şurasının Katibliyi ləğv edilsin və onların fəaliyyəti ictimai əsaslarla həyata keçirilməklə yenidən təşkil edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.4. Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi ilə birlikdə bu fərmanın 2-ci hissəsində nəzərdə tutulan dövlət orqanlarının və qurumlarının balanslarında olan dövlət əmlakına münasibətdə “Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanına uyğun olaraq tədbirlər görüb üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.5. bu fərmanın 1-ci hissəsinə uyğun olaraq təkliflərini və müvafiq normativ hüquqi aktların layihələrini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.6. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Bu fərmanın 2-ci hissəsində nəzərdə tutulan komissiyalara və Tarif (qiymət) Şurasına tapşırılsın ki, müvafiq işçi qrup və katiblikləri həmin komissiyaların və Tarif (qiymət) Şurasının üzvlərinin təmsil etdikləri dövlət orqanlarının (qurumlarının) nümayəndələrindən ibarət tərkibdə formalaşdırsın, onların əsasnamələrini təsdiq etsin və bu barədə bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

5. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 yanvar 2019-cu il*

# Müdafiə sənayesi sahəsində əməkdaşlıq inkişaf etdirilir

Yanvarın 14-də Ankarada Azərbaycan ilə Türkiyə arasında müdafiə sənayesi üzrə əməkdaşlığa dair görüş keçirilib.

Müdafiə Sənayesi Nazirliyindən (MSN) AZƏRTAC-a bildiriblər ki, Türkiyənin Müdafiə Sənayesi Komitəsində təşkil olunan görüş 2018-ci ildə imzalanmış “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında müdafiə sənayesi sahəsində əməkdaşlıq haqqında” Sazişin müddəalarına uyğun olaraq həyata keçirilib.

Görüşdə MSN-in və nazirliyin birlik və müəssisələrinin rəhbərlərindən ibarət geniş tərkibdə nümayəndə heyəti, Türkiyənin “Aselsan”, “Roketsan”, “Ayesaş”, “TAİ”, “Çukurova” və digər qabaqcıl müdafiə sənayesi şirkətlərinin rəhbərləri iştirak ediblər.

Söhbət zamanı Türkiyənin görüşdə təmsil olunan şirkətlərinin fəaliyyəti ilə bağlı təqdimatlar keçirilib. Tədbirdə Azərbaycan ilə Türkiyə arasında müdafiə sənayesi üzrə mövcud əməkdaşlığın səviyyəsində məmnunluq ifadə olunub. Həmçinin bir sıra yeni əməkdaşlıq layihələrinin icrası ilə bağlı qarşılıqlı razılıqlar əldə edilib.

Sonda iclasın yekununa dair protokol imzalanıb.

Səfər çərçivəsində nümayəndə heyəti Türkiyənin Müdafiə Sənayesi Komitəsinin sədri İsmayıl Dəmir ilə də görüşüb. Qeyd edək ki, Türkiyənin savunmasanayi.org saytının rəsmi “Facebook” səhifəsində Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində yaradılan və bu günlərdə poliqon sınaqları keçirilən 125 millimetrlik tank topları üçün nəzərdə tutulmuş döyüş sursatı ilə bağlı məlumat yerləşdirilib. Səhifədə poliqon sınaqlarının əsas məqsədi və nəticəsi barədə ətraflı məlumat verilib.

# Mülki-Prosessual Məcəlləyə edilmiş dəyişikliklər müzakirə olunub

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məhkəmə islahatları çərçivəsində ədalət mühakiməsinin səmərəliliyinin artırılması istiqamətində ardıcıl tədbirlər davam etdirilir.

Əhaliyə səmərəli xidmət göstərilməsinə, bu zaman korrupsiyaya şərait yaradan halların aradan qaldırılmasına və vətəndaş məmnunluğunun artırılmasına xüsusi önəm verilir. Keçirilən tədbirlərin daha bir bariz nümunəsi olaraq dövlət başçısının qanunvericilik təşəbbüsü ilə 2018-ci il 28 dekabr tarixli qanunla Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə dəyişikliklər edilib.

AZƏRTAC xəbər verir ki, Sumqayıt Apelyasiya Məhkəməsinin inzibati binasında qanunvericiliyə edilmiş dəyişikliklərin tətbiqi ilə əlaqədar tədbir keçirilib.

Tədbirdə Sumqayıt Apelyasiya Məhkəməsinin və onun yurisdiksiyasına aid olan məhkəmələrin hakimləri və aparat işçiləri iştirak ediblər.

Sumqayıt Apelyasiya Məhkəməsinin sədri Səadət Bəktaşi 2018-ci il 28 dekabr tarixli qanunla Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsinə edilmiş dəyişikliklərin, “Elektron Məhkəmə” informasiya sisteminin yaradılmasının məhkəmə fəaliyyətinin təkmilləşdirilməsinə və müasirləşdirilməsinə, məhkəmə icraatının elektron qaydada aparılmasına, operativliyin və şəffaflığın təmin olunmasına, vətəndaşların məhkəmələrə müraciət imkanlarının genişləndirilməsinə xidmət etdiyini bildirib. O, həyata keçirilən bütün islahatların əsasında, ilk növbədə, məhkəmə hakimiyyətinin müstəqilliyinin artırılmasının və insan haqlarının daha etibarlı müdafiəsinin dayandığını diqqətə çatdırıb.

Sonra tədbirdə iştirak edən təlimçilər, o cümlədən Azərbaycan Respublikasının Ali Məhkəməsinin hakimi Xəqani Məmmədov, Bakı Apelyasiya Məhkəməsinin hakimi Abiddin Hüseynov Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsinə edilmiş dəyişikliklər barədə ətraflı məlumat veriblər.

Qanunvericiliyin yeni müddəaları təhlil olunaraq təcrübədə qarşıya çıxacaq məsələlərin həlli yolları müzakirə edilib. Tədbirdə, həmçinin məhkəmə işləri üzrə tərəflərin hüquq və vəzifələrinə dair “məhkəmə bildirişi”nin və yekun məhkəmə aktından “çıxarış”ın məzmunu da müzakirə edilib.

Bakı Şəhəri Yasamal Rayon Məhkəməsinin hakimi Ramin Qurbanov “Elektron məhkəmə” informasiya sisteminin imkanları, o cümlədən vahid məhkəmə portalı, vətəndaşların şəxsi kabineti, dövlət rüsumlarının elektron ödəniş sistemi və elektron icra sistemi barədə təqdimatla çıxış edib. Mülki Prosessual Məcəlləyə edilmiş son dəyişikliklərin “Elektron məhkəmə” informasiya sistemində tətbiq olunduğu diqqətə çatdırılıb.

Təlimdə iştirak edən hakimlər “Elektron məhkəmə” informasiya sisteminin tətbiqində yaranan hallarla bağlı sualları cavablandırıb, fikir mübadiləsi aparılıb.

# YENİ HƏDƏFLƏRƏ DOĞRU

*Əvvəli 1-ci səh.*

O Azərbaycan ki, Ermənistanla müharibə vəziyyətindədir!

O Azərbaycan ki, torpaqlarının 20 faizi işğal altındadır!

O Azərbaycan ki, bir milyondan çox qaçqın və məcburi köçkünü vardır!

O Azərbaycan ki, dövlət müstəqilliyinin real dövrü vur-tut iyirmi beş ildir!

**Amma görün xalqla iqtidar yekdil olanda inkişaf necə sürətlə gedir!**

**Xüsusən son 15 ilin nailiyyətləri nə qədər möhtəşəm və ürəkaçandır!**

Həm də bunu təkcə biz demirik! Bakıya gələn bütün əcnəbi qonaqlar sabitlikdən, əmin-amanlıqdan tutmuş tikinti, abadlıq, quruculuğa qədər hər şeyə valeh olduqlarını gizlətmirlər. Dünyanın nüfuzlu qurumları isə daim özlərinin reytinq siyahısında ölkəmizə öndə yer verirlər.

Şübhə etmirik ki, bu proses növbəti illərdə də sürətlə davam edəcəkdir!

❖ ❖ ❖

*"Uğurlu Naxçıvan əməliyyatı nəticəsində biz 11 min hektar torpağa tam nəzarət edirik. Bu, çox uğurlu əməliyyat idi. Eyni zamanda, əldə edilmiş yüksəkliklər strateji xarakter daşıyır. Bu yüksəkliklər Ermənistanı Dağlıq Qarabağla birləşdirən yola tam nəzarət etmək üçün bizə imkan yaradır. Yəni bu hadisə - Naxçıvan əməliyyatı bir daha onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq və öz ərazi bütövlüyünü istənilən yolla bərpa edəcək".*

Prezident Azərbaycanın qətiyyətli mövqeyini bir daha bəyan etdi!

Təəssüf ki, I Qarabağ müharibəsi başa çatdıqdan sonra bizə yalnız rayonların işğal gününü "qara bayram" kimi qeyd etmək qalmışdı...

**Ali Baş Komandan cənab İlham Əliyev isə bu "ənənəyə" yenisini, "qırmızı bayram"ları əlavə etdi!**

**2016-cı ildə Aprel zəfərini, 2018-ci ildə isə Naxçıvandakı qələbənin sevincini yaşatdı!**

Aprel müharibəsində təkcə Lələtəpə yüksəkliyini, böyük bir ərazini qaytarmaqla xeyli sahəyə nəzarəti də bərpa etdik!

Aprel müharibəsi həm də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ müharibəsində əsaslı və kəskin dönüş oldu!

Düşməni təkcə hərbi cəhətdən məğlub edərək üstünlüyümüzü sübut etmədik!

Eyni zamanda, psixoloji və mənəvi cəhətdən də yerlə yeksan etdik!

Naxçıvan əməliyyatında da böyük bir ərazi və strateji yüksəkliklə bərabər Ermənistandan Qarabağa gedən əsas yolu da nəzarətə götürdük!

**Düşmən hələ də bu itkilərin ağrısını yaşayır!**

**Düşmən hələ də bu məğlubiyyətin xofundan qurtarmayıb!**

**Düşmən hələ də bu dəyişikliklərin altını çəkir!**

NƏTİCƏ GÖZ ÖNÜNDƏDİR:

- Ermənistanın kriminal rəhbərliyi hakimiyyətdən qovuldu!
- Qarabağ klanı məhşər ayağına çəkilir!
- Artıq tək ermənilər yox, bütün dünya da anlayıb ki, münaqişənin gedişində ciddi keyfiyyət dəyişikliyi baş verib!
- İqtisadiyyatı və tarazlığı pozulan, siyasəti və dövlət müstəqilliyi iflasa uğrayan Ermənistan Azərbaycanın qarşısında durmaq iqtidarında deyil!
- Onun xilası əraziləri könüllü olaraq işğaldan azad etmək, qonşularla normal münasibətlər qurmaqdadır!

HƏM DƏ QISA MÜDDƏTDƏ!

❖ ❖ ❖

*"Azərbaycan bu gün dünya miqyasında çox böyük hörmətə layiq olan ölkə kimi tanınır. Bu il Bakıda Qoşulmama Hərəkatının Zirvə görüşü keçiriləcək və Azərbaycan bu böyük təşkilata sədrlik edəcək. Əlbəttə ki, BMT-dən sonra dünyanın ikinci böyük təşkilatına sədrlik etmək bizim nüfuzumuzu daha da artıracaq".*

Azərbaycanın nüfuzunu artıran başlıca amillər hansılardır?

Əvvəla, Azərbaycan müstəqil daxili və xarici siyasət yürüdən müstəqil dövlətdir!

Forpost, satellat və ya kiminsə əyaləti deyil!

Bütün dövlətlərlə qarşılıqlı maraqlara əsaslanan, bir-birinin daxili işlərinə qarışmayan əməkdaşlıq əlaqələri qurur.

Azərbaycan xoş məramlar, xoş niyyətlər dövlətidir! Həyat vəsiqəsi verdiyi bütün transmilli layihələr bütün dövlətlərə və xalqlara xeyir gətirir.

Keçirdiyi beynəlxalq tədbirlərdə qlobal dünyanın problemləri müzakirə olunur, insanlara sülh və əmin-amanlıq gətirən təkliflər irəli sürülür, qərarlar qəbul olunur.

Dünya və Avropa birinciliklərinin, beynəlxalq idman yarışlarının təşkilatçısı qismində çıxış edir. I Avropa, IV İslam Həmrəyliyi Oyunlarının, "Formula-1" kimi mötəbər yarışların yüksək səviyyədə keçirilməsinin təminatçısı olub.

**Bütün fəaliyyəti ilə dünyaya sülh, xalqlara mehribanlıq və əməkdaşlıq nümunələri bəxş edən dövlət, təbii ki, başqaları tərəfindən daim sevilər, hörmətlə qarşılanar, nüfuz sahibinə çevrilər.**

❖ ❖ ❖



*"Mən bu siyasəti heç vaxt gizlətməmişəm və müxtəlif kürsülərdən açıq bəyan etmişəm ki, biz Ermənistanı təcrid etmək üçün bütün vasitələrdən istifadə edirik və edəcəyik. O vaxta qədər ki, torpaqlarımız azad olunsun.*

*Dəfələrlə bunu bildirmişəm, bir daha demək istəyirəm ki, Ermənistanı bu ağır böhranlı vəziyyətdən çıxarmaq üçün bir yol var - o da Azərbaycan ilə münasibətləri normallaşdırmaqdır. Biz buna hazırıq. Ancaq əlbəttə ki, buna nail olmaq üçün bir şərt var - Ermənistan silahlı qüvvələri işğal edilmiş torpaqlardan çıxarılmalıdır".*

Azərbaycanla aşkar düşmənçilik edən yalnız bir ölkə var, o da Ermənistandır. Ölkəmizə qarşı ərazi iddiasında olan bu forpost havadarlarına arxalanaraq ərazimizin 20 faizini işğal edib, 20 min vətən övladının şəhidliyinə bais olub! Amma özü də, necə deyərlər, ağ günə çıxmayıb! Satellat dövlətə çevrilib, bütün strateji obyektlərini başqasına satıb, hazırda əhalisi dilənçi vəziyyətində yaşayır, ölkə vətəndaşları birdəfəlik köçüb gedirlər.

Artıq dünya Ermənistanın Xocalı soyqırımı törətdiyini bilir və qəbul edir, beynəlxalq qurum və təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və müdafiə edir. Bu günlərdə Avropa İttifaqının separatçılıqla bağlı qəbul etdiyi qətnamə ikili standartların da sonunun çatdığını göstərir.

**Ermənistanın ən çox arxalandığı və Azərbaycanın üzvü olmadığı KTMT-də nəinki onu daha müdafiə etmirlər, əksinə, beşinci təkər vəziyyətində görürlər. Rusiya ilə Avropa arasında vurnuxan bu ölkə axmaq siyasətinin girovuna çevrilərək iflas həddinə çatmışdır!**

❖ ❖ ❖

*"Bu gün Azərbaycan iqtisadi inkişaf baxımından heç kimdən, heç bir beynəlxalq maliyyə qurumundan, heç bir ölkədən asılı deyil. İqtisadi müstəqillik bizə imkan verir ki, müstəqil siyasət aparaq, Azərbaycan xalqının maraqlarını müdafiə edək. Keçən il iqtisadi inkişaf baxımından uğurlu il olmuşdur. Deyə bilərəm ki, keçən il dərin iqtisadi islahatlar ili olmuşdur və bu islahatların nəticələrini indi hər kəs görür. Büdcəmizə daxilolmalar böyük dərəcədə artıb. Bütün iqtisadi göstəricilərimiz çox müsbətdir.*

*İqtisadi islahatların əsas məqsədi bu sahədə şəffaflığı tam təmin etməkdir, xoşagəlməz hallara qarşı mübarizəni gücləndirməkdir və beləliklə, ölkəmizin uğurlu inkişafını sürətləndirməkdir".*

Elə bir il yoxdur ki, Azərbaycan dünyaya səs salan bir möhtəşəm layihəni işə salmasın! Bakı-Tbilisi-Qars dəmir yolu xətti, Bakı Beynəlxalq Dəniz Ticarəti Limanı, Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizləri, "Cənub qaz dəhlizi", "Star" NEZ kimi layihələri, orbitə buraxılan 3 peyki hasilə gətirmək hər dövlətin hünəri deyil!

**Bunları Prezident İlham Əliyev edib!**

Təkcə ötən il ümumi daxili məhsul, yəni iqtisadi artım 1,4 faiz olub. Bundan daha yaxşı göstərici qeyri-neft sektorunun inkişafıdır. Burada da inkişaf 1,8 faizdir. Sənaye istehsalı 1,5 faiz artıb, qeyri-neft sektorunda isə sənaye istehsalı 9,1 faiz, kənd təsərrüfatı 4,6 faiz artmışdır.

Ölkə iqtisadiyyatına keçən il 17,2 milyard manat sərmayə qoyulub. Bu sərmayənin 11 milyard manatı, ondan da çoxu ölkəmizin qeyri-neft sektoruna qoyulan sərmayədir. Yəni bu, onu göstərir ki, Azərbaycan sərmayə qoyuluşu üçün çox cəlbedici ölkədir.

**Ümumiyyətlə, son 15 ildə ölkə iqtisadiyyatı 3,2 dəfə, ÜDM-in adambaşına düşən həcmi 5 dəfə, qeyri-neft iqtisadiyyatı 2,8 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artıb.**

**İşsizlik və yoxsulluq 5 faizə enib, valyuta ehtiyatımız 45 milyard dolları keçib, 2 milyona yaxın yeni iş yerləri açılıb, inflyasiya cəmi 2,3 faizdir.**

**Müstəqillik dövründə ölkəyə 250 milyard dollarlıq sərmayə yatırılıb.**

❖ ❖ ❖

Bir sözlə, 2018-ci il ölkəmizin ictimai-siyasi və sosial-iqtisadi həyatındakı hadisələrin əhəmiyyəti və zənginliyi baxımından uğurlu il kimi qiymətləndirilməlidir.

**Dövlət daim öz vətəndaşının yanındadır!**

Şəhid ailələrinə, müharibə əlillərinə, hərbçilərə, jurnalistlərə dövlət hesabına tikilən təmirli evlər verilir, sosial yardımlar göstərilir.

**Azərbaycan vətəndaşı ilbəil daha yaxşı yaşayır!**

Şübhə etmirik ki, bundan sonra da hər ilimiz uğurlu olacaq, yeni-yeni qələbələrə imza atılacaq. Azərbaycan xalqı ərazi bütövlüyünü bərpa etməklə xoşbəxt və firavan ömür sürəcəkdir!

**Bəxtiyar SADIQOV**

---

# İlham Əliyev qlobal erməni korrupsiya şəbəkəsini ifşa etdi

## "Ermənistanın keçmiş rəhbərləri cinayətkardır, qəhrəmanları qorxaqdır, generalları oğrudur"

*Əvvəli 1-ci səh.*

NATO-nun Brüssel sammitində qəbul edilən Yekun Kommunikedə Azərbaycanın ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının xüsusi olaraq qeyd edilməsi ölkəmizin yeni diplomatik uğuruna çevrildi.

Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında çıxışı zamanı bu mövzuya toxunan Prezident İlham Əliyev bildirib: *"Keçən il Avropa İttifaqı ilə Azərbaycan arasında "Tərəfdaşlığın prioritetləri" adlı mühüm sənəd imzalanmışdır. Bu sənəddə bir çox məsələlər öz əksini tapır. Xüsusilə onu vurğulamalıyam ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı olan məsələlər çox müsbət xarakter alır. Bu sənəddə Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərimizin toxunulmazlığına dəstək və hörmət ifadə olunur. Hesab edirəm ki, son illər ərzində bu istiqamətdə aparılan işlər arasında bu sənədin xüsusi yeri vardır. Beləliklə, Avropa İttifaqı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları ilə bağlı öz fikrini birmənalı şəkildə ortaya qoyur. Eyni zamanda, keçən il NATO-nun Zirvə görüşündə də qəbul edilmiş yekun bəyannamədə Azərbaycanın ərazi bütövlüyünə dəstək və hörmət əksini tapmışdır".*

### "Biz Ermənistanı təcrid etmək üçün bütün vasitələrdən istifadə edirik və edəcəyik"

Bu gün birmənalı qəbul olunan həqiqətdir ki, işğal siyasətinə son qoymayacağı təqdirdə qarşıdakı dövr ərzində Ermənistanı daha böyük problemlər gözləyir. Azərbaycan həm iqtisadi, həm hərbi, həm də demoqrafik cəhətdən Ermənistanı üstələməkdə davam edir. Bundan əlavə, ölkəmiz ötən dövr ərzində yeni qlobal enerji və nəqliyyat layihələrinə start verməklə də Ermənistanın təcridini daha da dərinləşdirə bilib.

Burada nəzərə almaq lazımdır ki, Azərbaycan diplomatiyası uğurlu addımları ilə konkret aspektlər üzrə dünyanın bir çox dövlətləri ilə səmərəli əməkdaşlıq sistemi yaradır. Ermənistan isə işğal siyasətinə görə bu sistemdən kənarda qalır. Yəni Azərbaycana qarşı yürütdüyü təcavüz və işğal siyasətinə görə Ermənistan bu gün geosiyasi və geoiqtisadi baxımdan özünütəcrid vəziyyətindədir.

Ermənistanın düşdüyü geosiyasi və geoiqtisadi təcrid vəziyyətindən yeganə çıxış yolu Azərbaycana qarşı işğala son qoyması, qonşu dövlətlərlə sivil münasibətlər qurmasıdır. Əks təqdirdə Ermənistanın sosial-iqtisadi və demoqrafik vəziyyətinin daha da ağırlaşması qaçılmazdır.

Bütün regional layihələrdən, inteqrasiya proseslərindən kənarda qalan Ermənistan işğalçılıq siyasətindən əl çəkməyənə qədər istənilən hakimiyyət dəyişikliyi bu ölkədəki problemləri aradan qaldırmaq iqtidarında deyil. Məsələnin bu tərəfinə toxunan Prezident deyib: *"Bildiyiniz kimi, keçən il Ermənistanda böyük dəyişikliklər baş verdi. İyirmi il hakimiyyəti qanunsuz şəkildə zəbt etmiş kriminal xunta rejimi süqut etdi. Bu da təbiidir və bu, kriminal rejimin məntiqi acı sonudur. Bu məsələdə, əlbəttə ki, Ermənistanın işğalçılıq siyasəti də mühüm rol oynayır. Çünki məhz bu siyasətə görə Ermənistan biz tərəfdən bütün regional layihələrdən təcrid edildi. Bu işğalçılıq siyasətinə görə Ermənistan iqtisadiyyatı, demək olar ki, çökdü. Ermənistan çox dərin demoqrafik böhran içindədir və depopulyasiya, yəni əhalinin azalması prosesi geniş vüsət alıbdır. Azərbaycan dünyaya sübut etdi ki, onun apardığı siyasət düzgün siyasətdir. Mən bu siyasəti heç vaxt gizlətməmişəm və müxtəlif kürsülərdən açıq bəyan etmişəm ki, biz Ermənistanı təcrid etmək üçün bütün vasitələrdən istifadə edirik və edəcəyik. O vaxta qədər ki, torpaqlarımız azad olunsun. Bu siyasət öz nəticəsini verdi, kriminal rejim çökdü və Ermənistanda yeni vəziyyət yarandı".*

### Kriminal rejim tam biabır olaraq siyasi səhnədən qovulub

Aydındır ki, işğal siyasətinin davam etməsi fonunda Azərbaycanın gördüyü tədbirlər Ermənistanın iflasını daha sürətli vəziyyətə gətirəcək. Bu isə Ermənistanda çoxsaylı problemlərin miqyasını bir qədər də genişləndirəcək. Elə 20 il Ermənistana rəhbərlik etmiş oğru, kriminal rejimin hakimiyyətdən qovulmasını təmin edən şərtlərdən biri də məhz Prezident İlham Əliyevin həyata keçirdiyi təcrid siyasəti oldu. Eyni zamanda, ordumuzun vurduğu zərbələr də bunda öz rolunu oynadı.

Bu gün Ermənistanda belə etiraflara rast gəlinir: ölkənin, onun keçmiş rəhbəri Serj Sarkisyanın siyasi fiaskosunun müəllifi Yerevanı uğurla təcrid durumuna salmağı bacaran Azərbaycanın dövlət başçısı İlham Əliyevdir. Birmənalı həqiqətdir ki, ötən dövr ərzində Azərbaycan Prezidenti qlobal informasiya savaşında dünya erməniliyini gücdən salmaqla, neytrallaşdırmaqla yanaşı, şəxsən Serj Sarkisyanın siyasi iflasını həyata keçirdi. Xalq bu canidən yaxasını qurtardı. Xocalı soyqırımının əsas səbəbkarı hakimiyyətdən qovuldu.

Azərbaycan Prezidentinin böyük uzaqgörənliklə dediyi "Erməni xalqının ən böyük düşməni ona rəhbərlik edən hərbi xuntadır. Xalq onu zəlil gününə qoyan, dövləti dalana dirəyən cinayətkar rejimdən xilas olmalıdır" fikri Yerevanda artıq reallığa çevrildi.

Dövlət başçısı bildirib ki, haqq-ədalət öz yerini tapıb və 20 il Ermənistana rəhbərlik etmiş oğru, kriminal rejim tam biabır olaraq siyasi səhnədən qovulub: *"Mən dəfələrlə demişəm ki, Ermənistanı kriminal rejim idarə edir. İndi bunu erməni xalqı deyir. Onların keçmiş rəhbərləri cinayətkardır, bu, sübut olunub. Onların qəhrəmanları qorxaqdır, onların generalları oğrudur. Bax budur Ermənistanın indiki vəziyyəti. Müstəqilliyi cəmi 27 ilə bərabər olan bir ölkəni əgər 20 il ərzində cinayətkarlar idarə ediblərsə, onda bu ölkə haqqında təsəvvür yaratmaq o qədər də çətin deyil".*

### "Ermənistan beynəlxalq arenada "konyak diplomatiyası"nı işə salıb və bir çox siyasətçiləri satın alıb"

Azərbaycan danışıqlar prosesində ədalətli, prinsipial və beynəlxalq hüquqa əsaslanan mövqe nümayiş etdirir. Bu dəyişməz mövqeyi Prezident İlham Əliyev xarici ölkələrə səfərlərində, eləcə də ölkəmizə gələn nüfuzlu beynəlxalq təşkilatların və dövlətlərin rəhbərlərinin diqqətinə dəfələrlə çatdırıb. Rəsmi Bakı istənilən beynəlxalq gərginlik və münaqişənin ayrı-ayrı dövlətlərin siyasi iddiaları, ikili standartlar sayəsində deyil, məhz aparıcı beynəlxalq təşkilatların qərar və qətnamələri əsasında həllinin tərəfdarı kimi çıxış edir.

İşğal faktı ilə barışmayacağını hər zaman bəyan edən Azərbaycan danışıqların sonadək nəticəsiz qalacağı təqdirdə münaqişənin həllində güc yoluna əl atacağını gizlətmir. Söhbət ondan gedir ki, Ermənistan və Azərbaycan arasında 1994-cü il mayın 12-də atəşkəs rejiminin tətbiqini nəzərdə tutan Bişkek müqaviləsinin imzalanmasından 15 il keçsə də, Yerevanın qeyri-konstruktiv, təcavüzkar siyasəti üzündən beynəlxalq birliyin münaqişəni dinc yolla tənzimləmək cəhdləri hələ ki fayda verməyib.

Ötən illərdə ATƏT-in Minsk qrupunun həmsədrlərinin (ABŞ, Fransa, Rusiya) vasitəçiliyi ilə aparılan üzücü və gərgin danışıqlar prosesi bir neçə dəfə problemin real həlli müstəvisinə yönəlsə də, Ermənistan rəhbərliyinin aşkar siyasi cığallığı və siyasi qətiyyətsizliyi üzündən sülhə gəlmək mümkün olmayıb.

Ermənistanın təcavüzkar dövlət olmasına, işğalçılıq siyasəti yürütməsinə açıq-aşkar göz yumulur. Bu, bir yana, "demokratiya carçıları" Azərbaycandakı müsbət meyillərə kölgə salmağa çalışdıqları halda, təcavüzkar dövlətin daxilində cərəyan edən antidemokratik proseslərə, dövlətin antihumanist, insanlığa qarşı yönəlmiş zorakı addımlarına da göz yumurlar.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, iyirmi il ərzində hökm sürən kriminal, qaniçən xunta rejimini bəzi beynəlxalq təşkilatlar görməzlikdən gəlirlər: *"İndi sual olunur: necə ola bilər ki, son illərdə Ermənistanda böyük miqyasda saxtakarlıqla keçirilmiş prezident və parlament seçkilərinə beynəlxalq təşkilatlar müsbət rəy verirlər. Axı son parlament seçkiləri göstərdi ki, hakimiyyəti qanunsuz şəkildə zəbt etmiş dəstə 5 faiz də səs yığa bilməyib. Bunu hər kəs etiraf edir. Ancaq əvvəlki illərdə özlərinə 50 faizdən çox səs yazdıran kriminal rejimin fəaliyyəti niyə qınaq obyektinə çevrilməmişdir?! Avropa Şurası, Avropa Parlamenti və demokratiyadan, ədalətdən dəm vuran digər beynəlxalq təşkilatlar o biabırçı mənzərəyə niyə göz yumurdular?! Məgər onlar bilmirdilər ki, Ermənistanda bütün seçkilər saxtalaşdırılıb? Bilmirdilər ki, erməni xalqı kriminal rejimə nifrət edir? Çox yaxşı bilirdilər, amma göz yumurdular. Nəyə görə? İkili standartlara görə. Nəyə görə? Çox güman ki, burada hansısa təmənna ilə bağlı başqa məsələlər olub. Heç kimə sirr deyil ki, Ermənistan beynəlxalq arenada "konyak diplomatiyası"nı işə salıb və bir çox siyasətçiləri satın alıb. Əvvəlki illərdə Ermənistanın xarici siyasətində rüşvət amili birinci yerdə idi".*

### Cəfəng bəyanatlar

Bu gün dünyanın siyasi müstəvisində özünü qabarıq şəkildə göstərən əsas problemlərdən biri də ikili standartlarla bağlıdır. Xüsusən də Qərb dövlətləri və onların təmsil olunduğu bəzi beynəlxalq təşkilatlar tərəfindən dünyada gedən proseslərə ikili standartlar əsasında yanaşılması özünü getdikcə daha çox büruzə verir.

Əksər beynəlxalq təşkilatların Azərbaycanın ərazi bütövlüyünü tanıması haqqında qərar və qətnamələri var. Amma bunların heç biri icra olunmur. Çünki bu gün beynəlxalq ictimaiyyət Ermənistanın danışıqlarda qeyri-konstruktiv mövqe nümayiş etdirməsinə, status-kvonun qorunub saxlanması cəhdlərinə, danışıqların pozulmasına yönəlik addımlarına kəskin iradını bildirmir. Halbuki Ermənistan BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri başda olmaqla, nüfuzlu beynəlxalq qurumların qərar və qətnamələrini də icra etməyərək onlardan boyun qaçırır. Eyni zamanda, Ermənistan ATƏT-in Minsk qrupunun həmsədrlərinin bəyanatında əks olunmuş status-kvonun saxlanmasının yolverilməzliyi, hərbi əməliyyatlardan çəkinməsi və münaqişənin sülh yolu ilə həlli təkliflərini də hesaba almır.

Nazirlər Kabinetinin son iclasında məsələnin bu tərəfinə toxunan dövlət başçısı vurğulayıb: *"Ona görə mən hesab edirəm ki, bu məsələ müvafiq beynəlxalq orqanlar tərəfindən çox ciddi araşdırılmalıdır və kriminal rejimə iyirmi il ərzində dəstək verən, onun cinayətlərinə göz yuman, onun əlindən orden, medal alan dırnaqarası siyasətçilər məsuliyyətə cəlb olunmalıdırlar. Bizim tələbimiz bundan ibarətdir. Əgər bu, olmasa, demək heç nə dəyişilmir. Əgər bu, olmasa, onda bu gün bəzi beynəlxalq təşkilatlar tərəfindən səslənən ədalət, insan haqları haqqında cəfəng bəyanatlar elə cəfəng bəyanatlar kimi qalacaq. Sarkisyan rejiminə, onun əməllərinə dəstək verən, göz yuman beynəlxalq təşkilatlar əgər öz günahını yumaq istəyirlərsə, qoy etiraf etsinlər ki, onlar iyirmi il ərzində cinayətkarlarla əlbir olublar və beləliklə, bu cinayətlərdə onların da əli, onların da payı var".*

Azərbaycanın beynəlxalq təşkilatların və Ermənistanın qarşısında qoyduğu tələb kifayət qədər aydındır. Əgər dünya həmişə böyük geosiyasi əhəmiyyətə malik region kimi qəbul etdiyi Cənubi Qafqazda yenidən müharibə alovlarını görmək istəmirsə, Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün işğalçı Ermənistanı beynəlxalq hüququn tələblərini yerinə yetirməyə vadar etməlidir. Ədalətin öz yerini tutması üçün qaçqın və məcburi köçkünlərin doğma torpaq həsrətinə son qoyulmalıdır.

Lakin bütün bu yazılanlar kağız üzərində qalmaqda davam edir. Görünən budur ki, Ermənistanın siyasi-diplomatik başbilənləri müasir geosiyasi proseslərin sürətli yeniləşməsi qarşısında reallığı qəbul etməkdə acizdirlər. Bu səbəbdən də hələlik rəsmi Yerevan heç bir konstruktiv qərar qəbul edə bilmir. Belə vəziyyət, öz növbəsində, sürətlə Ermənistanın əleyhinə işləyərək onun üzləşdiyi problemlərin miqyasını daha da dərinləşdirir. Ermənistanın yeni rəhbərliyi bundan əvvəl iqtidarda olan səhra komandirlərinin siyasətini davam etdirsə, işğalçı ölkə üçün Aprel dərslərinin təkrarlanması qaçılmaz olacaq.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Tariximizə və tarixçilərimizə dəyərli alim töhfəsi

**Akademik Ramiz Mehdiyev Azərbaycan tarixinin müxtəlif dövrləri və problemlərinə çoxlu sayda sanballı əsərlər həsr etmişdir. Akademikin digər əsərləri ilə bərabər tarixi və siyasi baxımdan dəyərli olan "Gorus - absurd teatr mövsümü", "Dağlıq Qarabağ - məxəzlərdən oxunmuş tarix" Azərbaycan tarixşünaslığında xüsusi yer tutan qiymətli tədqiqatlardır. "Şah İsmayıl Səfəvi: hökmdarın və döyüşçünün portreti" monoqrafiyası da akademikin Azərbaycan tarixşünaslığında və şərqşünaslığında xüsusi yeri olan əsərlərindən biridir.**

Hazırkı monoqrafiya da müasir geosiyasətdə öz aktuallığını saxlamış Azərbaycan türklərinin böyük imperiyalarından biri olmuş Səfəvilər dövlətinin tarixinə dair maraqlı problemə həsr edilmişdir. Akademikin "Qriqorian kilsəsi Səfəvilər dövlətinə qarşı casusluq aləti kimi" adlı bu kitabı XVII əsr - XVIII əsrin birinci rübündə Səfəvilər dövlətinə qarşı Qriqorian kilsəsinin kəşfiyyatı və siyasi-ideoloji fəaliyyətini Azərbaycan tarixi və siyasi elmində təfərrüatlı, dəqiq anlamaq və qiymətləndirmək üçün son dərəcə dəyərli mənbədir *(Рамиз Мехтиев. Григорианская церковь как инструмент шпионажа против Сефевидского государства (XVİİ - первая четверть XVİİİ вв.) Баку, "Шарг-Гарб", 2018, 160 с.)*.

Müəllif monoqrafiyada göstərilən dövrün ən mühüm siyasi prosesləri ilə bağlı bir sıra aktual məsələləri ardıcıl və diqqətli şəkildə araşdırmışdır: Vatikanın Səfəvilərə göndərdiyi Katolik missiyasının ideoloji və agentlik fəaliyyətinin strategiya və taktikası çərçivəsində bu missiyalardakı Qriqorian kilsəsinin qarşılıqlı əlaqəsi, onun antisəfəvi düşmənçilik fəaliyyəti və Səfəvi şahlarının erməni ruhanilərinin və Qərb agentliklərinin siyasi və ideoloji təxribatlarının qarşısını almaq mübarizəsi məqsədi daşıması, erməni ruhanilərinin Qərblə gizli siyasi əlaqələr məsələsi, özünün Qərbdəki siyasi dayaqlarının uğursuzluğu zamanı Moskva haqqında, bu dövlətlə Qriqorian kilsəsi arasında XVII əsrin ikinci yarısında alternativ ciddi bir himayədar dövlət olması bünövrəsinin qoyulması haqqında düşünməyə başlamasına xüsusi diqqət yetirilmişdir.

Akademikin yeni kitabında Qərb dövlətlərinin, xüsusilə Rusiyanın əlində Səfəvilər dövlətinə qarşı casusluq, şantaj və separatizm alətinə çevrilmiş Qriqorian kilsəsinin siyasi-ideoloji və kəşfiyyat fəaliyyəti ilk dəfə olaraq tədqiq və şərh edilmişdir. Burada Azərbaycanın tarixi torpaqlarının işğalında, başqa dövlətlərə və xalqlara qarşı ermənilərin əsassız ərazi iddialarında Eçmiədzinin roluna dair faktların üzə çıxarılması və təhlili yeni və olduqca maraqlıdır.

Sözügedən monoqrafiyada milli tariximizə aid olan bir problem yüksək səviyyədə araşdırılmış, orta əsrlərdə mövcud olan Azərbaycan Səfəvilər dövlətinin tarixinə, həmin tarixdə baş verən və bu günə qədər məlum olmayan bəzi sirlərin üstü açılmışdır. Tədqiqatın əhəmiyyəti həm də ondadır ki, akademik Ramiz Mehdiyevin Azərbaycanın ictimai və humanitar elmlər sahəsində mövcud vəziyyətə dair fikirləri ictimai elmlər sahəsinin tədqiqatçılarına doğru fəaliyyət istiqaməti göstərir və bundan nəticə çıxarmağın son dərəcə vacib olmasını bəyan edir.

İndiyədək tarixşünaslıqda olan vəziyyətdən çıxış edərək, demək olar, orta əsrlərə dair tarixin mühüm problemlərinin hər hansı birinə, xüsusilə Azərbaycan Səfəvilər dövlətinin siyasi tarixinə dair məsələlərin araşdırılma səviyyəsi qənaətbəxş deyil. Həqiqət bundan ibarətdir ki, arxiv sənədlərindən istifadə edərkən faktlar və dəlillər düzgün seçilmirsə, mahiyyəti düzgün müəyyənləşdirilmirsə, onun tədqiqat kimi mötəbərliyi şübhə altına düşür. Əvvəlki əsərlərində olduğu kimi, akademikin bu əsərində də məxəzlərdən istifadə edilmiş, tarixşünaslığa yüksək həssaslıqla yanaşılmışdır. Monoqrafiya dərin məzmunlu olduğu qədər, rahat oxunaqlıdır, səlisdir, maraqlı məlumatlarla zəngindir.

"Əlbəttə, hər şeydən əvvəl, erməni mənbələri əsasında fəal iş aparılmalı, erməni milli ideyası adlandırılan orijinal hədəfləri ortaya çıxaran, eləcə də Azərbaycan dövlətinə və xalqına qarşı şüurlu şəkildə hazırlanmış erməni yalanlarına səbəb olan erməni mənbələri əsaslı şəkildə öyrənilməli, ifşa olunmasına kömək edən iş aparılmalıdır" deyən Ramiz Mehdiyev elmi ictimaiyyətə, xüsusilə də bu problemlərlə məşğul olanlara fəal iş aparmağı tövsiyə edir. Düşünürük ki, yerində olan bu çağırışa müsbət cavab vermək üçün hələ XIX əsr-XX əsrin əvvəllərində erməni kilsəsinin təşəbbüsü ilə Cənubi Qafqazın, xüsusilə də Azərbaycanın tarixini saxtalaşdırmaq yolunu tutan M.Çamçyan, K.Şahnazaryan, N.Emin, K.Patkanov və başqalarının ənənəsini davam etdirən ideoloqların (tarixçilərin, siyasətçilərin, şərqşünasların) ifşası intensiv olaraq davam etdirilməlidir. Əgər erməni tarixinin atası saydıqları Movses Xorenatsinin anonim müəllif olması, Mesrop Maştosun əlifba yaradıcısı deyil, saxtalaşdırıcı olması meydana çıxırsa, daha yeni məsələlərin aşkar ediləcəyinə şübhə qalmır.

Tarixi tədqiqatlar hüquqi tədqiqatlardan ona görə çox fərqlənir ki, tarixi faktlar ortaya qoyulursa, onu sübut etməyə ehtiyac yoxdur. Çünki fakt faktlığında qalır. Hüququn tarixi əsaslandırılması və yaxud baş verənlərə hüquqi qiymətin verilməsi isə çox çətin və bəzən nəticəsi olmayan bir fəaliyyət olaraq qalır.

Akademik Ramiz Mehdiyevin haqlı tövsiyələrindən biri kitabın proloqunda təqdim edilmişdir: "Ümid edirəm ki, bu iş bizim tədqiqatçılarımızı ermənilərin siyasi doktrinasının, həyat tərzinin, erməniliyin xarakterinin və psixologiyasının formalaşması tarixində Qriqorian kilsəsinin rolu ilə bağlı yalnız elmi dəlillərlə əsaslandırılmış arqumentlər və ciddi tarixi materiallara əsaslanaraq daha aktiv şəkildə, yaradıcılıqla tədqiqat aparmağa sövq edəcəkdir". Buna heç bir şübhə ola bilməz ki, indiyə qədər orta əsrlərə dair tədqiqatlarda köhnə stereotiplərdən uzaqlaşa bilməyən, Azərbaycana əyalət gözü ilə baxan imperiyaların, etnik və milli düşmən gözü ilə baxan dövlətlərin və onların radikal millətçilərinin təsiri ilə yazılan "mənbə" və "tədqiqatlar"dan istifadə etməklə davam edən yaradıcılıqdan uzaqlaşmaq, yeni metodologiyaya yiyələnərək orijinal materiallardan çıxış etmək lazımdır.

Kitabda Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin Osmanlı Türkiyəsi ilə münasibətlərinə və Türkiyənin Qara dəniz sahillərindəki Trabzona nəzarəti ələ keçirməsindən bəhs edilir, eləcə də bir sıra dövlətlərin və regionların tarixinə tarixçilərin münasibəti qeyd edilir. Müəllif yazır: "Tarixçilərin sözlərinə görə, bütün Cənubi Azərbaycan, Qarabağ, indiki Ermənistan, Kürdüstan, İraq və bütün Xorasan, eləcə də İran torpaqlarının Fars körfəzinə qədər mühüm bir hissəsi bu dövlətin hakimiyyəti altında idi".

Akademik göstərir ki, "çox vaxt "orta əsr Ermənistanı" ifadəsinə müraciət edən erməni müəlliflər bununla Azərbaycan torpaqlarında 1918-ci ildə yaranmış Ermənistan Respublikasının ərazisinin orta əsrlərdə hansısa erməni dövlətinə məxsusluğunu sübut etməyə cəhd göstərirlər, halbuki orta əsrlərdə hansısa erməni dövləti, onun hökmdarı, paytaxtı, konkret sərhədləri olmamış və digər dövlətlərlə diplomatik əlaqələr qurmamışdır və s.". Belə bir məntiqi arqumentlə erməni tədqiqatçılarının uydurmalarına münasibət bildirmək uğurludur. Əks halda, müəllifin özünün vurğuladığı kimi, "bu cür ciddi elmi müzakirələr üçün belə kateqoriyaya müraciət etmək qəbuledilməzdir və yolverilməzdir".

"20-ci yüzilliyin geosiyasi və coğrafi reallıqlarını orta əsr dövrünə köçürmək yolu ilə nəticələr çıxaran və hətta bəzi fərziyyələr irəli sürən bu cür tarixçilərdən biz hansı ciddi və mötəbər arqumentlər və nəticələr gözləyə bilərik?" deyə soruşan akademik belə iddiaların nə qədər əsassız olduğunu göstərir.

Diqqəti çəkən bir məsələ də akademik Ramiz Mehdiyevin "Son orta əsrlərdə Ermənistan haqqında danışarkən, ən yaxşı halda, İran və Türkiyənin müəyyən bölgələrinin xristian cəmiyyətinin az bir faizini təşkil edən kompakt erməni əhalisini təsəvvür etmək olar" deyərək ermənilərin hər hansı bir şəkildə, həm də Azərbaycana məxsus ərazilərdə qədim və orta əsrlərdə hansısa bir dövlətinin olmasının qeyri-mümkünlüyünü bildirməsidir.

Bu fikri bir daha dəqiqləşdirmək üçün müəllifin etdiyi şərhlər də maraqlıdır: "Təbiidir ki, ciddi tarixçilər sualın bu cür qeyri-elmi şəkildə qoyulmasını qətiyyətlə rədd edirlər, lakin təəssüf ki, onların çoxu, Azərbaycanın tarixi və mədəniyyəti ilə bağlı erməni saxtakarlığına gəldikdə, prinsipiallıq göstərmir ki, beləliklə də onların ermənilərə simpatiyası dəfələrlə ortaya çıxır".

Müəllif yuxarıda qeyd edilən məsələlərlə yanaşı, guya Səfəvilərin ardıcıl ermənipərəst siyasəti və həmin siyasətin erməniləri Qərb və Moskva ilə əməkdaşlığa təhrik etməsi barədə rus və Qərb tarixşünaslığında möhkəm kök salmış ənənəvi erməni uydurmaları üzərində də ətraflı dayanır. Bu uydurmaları ilkin, əsasən erməni mənbələrindəki məlumatlarla, eləcə də bir sıra nüfuzlu tədqiqatçıların gəldikləri nəticələrlə müqayisə etməklə akademik Ramiz Mehdiyev belə yanaşmanın əsassızlığını, məqsədli olmasını inandırıcı şəkildə sübut edir.

Akademik ermənilərin tarixdəki yerinə və onların xarakterinə dair maraqlı fikir bildirir: "Ermənilərin tarixindəki faktlar sübut edir ki, satqınlıq, başqa millətdən olan insanları qəbul etməmək ayrı-ayrı epizodlar deyil, konkret məqsədlərə nail olmağa yönəlmiş şüurlu hərəkətlərdir... Bədrəftarlıq onların xarakterinin mühüm cəhətidir". Bunun müqabilində onlardan (ermənilərdən) yalnız vergiləri vaxtında ödəmək, qanunlara riayət etmək və hakimiyyətin iradəsinə tabe olmaq tələb olunurdu. Demək olar ki, imperiyaların xarakterik xüsusiyyətindən irəli gələn "parçala və hökm sür" siyasətinə uyğun olan etnik münaqişələr törətmək, xalqlar və millətlərarası ədavət yaratmaq, onu dərinləşdirmək siyasəti mühüm rol oynamışdır.

Bu həqiqətdir ki, bir sıra xalqlar arasında münaqişələr əzəldən mövcud olmuşdur. Bunların bir qismi, təbii olaraq, mənafelərin toqquşmasından təbii olaraq yaranmışdırsa, digərləri süni olaraq, istənilmədən, kənar qüvvələrin təsiri ilə yaradılmışdır. Maraqlıdır ki, ermənilərlə digər xalqlar arasında münaqişələr məlum olanlardan fərqli şəkildə - özünəməxsus xüsusiyyətlərlə bağlı olaraq yaranmışdır.

Bu xüsusiyyətlərin nədən ibarət olduğu və tarixdə nə kimi rol oynadığı əsər boyu əksini konkret və hərtərəfli şəkildə tapmışdır.

Akademik əsərində erməniliyin müasir mahiyyətini də xarakterizə etmişdir: "Üstəlik, güclü dövlətçilik və xarici dəstəyin olmaması ilə, ermənilər öz niyyətlərini açıq şəkildə göstərmirdilər. Buna baxmayaraq, təvazökarlıq forması və onun həyata keçirilməsi yolları əsrlər boyu ermənilərin mövcud xarakterinin mahiyyətini dəyişmir".

Akademik Ramiz Mehdiyev xəbərdarlıq edir ki, "vətən tariximiz Azərbaycan xalqına və dövlətçiliyinə qarşı erməni xəyanəti ilə çox sayda nümunələrlə doludur. Təəssüf ki, yalnız ötən əsrin hadisələri ətraflı şəkildə işıqlandırılmışdır". Ermənistanın Azərbaycana təcavüzünün davam etdiyi, hələ də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmadığı vaxtda bu xəbərdarlıqda akademikin nə qədər haqlı olduğunu görürük.

Kitabın ikinci fəslində maraqlı bir fikir söylənilir: "Satılmağa hazır olan erməniləri satın alırdılar". Alim bundan irəli gələn bir sıra nəticələri də diqqətə çatdırır: "Başqa səbəb yoxdur. Erməni xalqının bütün bəlaları Qriqorian kilsəsi başda olmaqla onun siyasi elitasının satqınlığından irəli gəlir".

Müəllif ermənilərin bu spesifik xüsusiyyətlərinin Azərbaycan üçün təhlükə mənbəyi olduğunu diqqətə çatdırır: "XX əsrin əvvəlində ermənilər özlərinin satqınlığı və "beşinci kolon" rolu müqabilində Azərbaycanın tarixi torpaqları hesabına Cənubi Qafqazda müstəqil dövlət yaradılması ilə mükafatlandırıldılar". Burada, ermənilərin arzu və istəklərinin əsas hədəfini müəyyənləşdirməkdə akademikin dəqiqliyi və diqqətliliyi özünü göstərmiş, başlanğıcın nəticə ilə uyğunluğunun tarixi proseslərlə təsdiqi öz əksini tapmışdır.

Akademik Ramiz Mehdiyev tarixi hadisələri dəqiq faktlarla, elmi-tarixi şəkildə səlis ifadə etdiyi qədər də hadisələri və proseslərin mahiyyətini şərh edərkən istifadə etdiyi fəlsəfi, məntiqi ifadələr də çox maraqlıdır. Buradakı hər hansı bir fikri ifadə edərkən onun çatdırılma mexanizmi, fikrin inkişafi səviyyəsinin düzgün müəyyənləşdirilməsi və icrası metodoloji baxımdan çox qiymətlidir. Məsələn, akademikin münasibətləri müəyyənləşdirərkən "maraqların gizli müharibəsində" ifadəsindən istifadə etməsi araşdırılan məsələnin düzgün anlaşılmasına kömək edən şərt kimi yadda qalır.

Müəllif yazır: "Əsla mübaliğə etmədən faktlar belə deməyə əsas verir ki, həmin dövrdə Səfəvilər dövlətinin ətrafında baş vermiş bir çox proseslər bu gün Azərbaycana münasibətdə müşahidə etdiklərimizlə çox oxşardır. Bu proseslər əvvəlki əsrlərdə baş vermiş və ölkəmizin vətəndaşlarının əksəriyyətinə, hətta ümumi şəkildə də məlum olmayan hadisələrin, bir növ, davamıdır". Bundan nəticə çıxararaq düşünmək olar ki, akademikin Azərbaycan Respublikasının ətrafında baş verən hadisələrə ciddi yanaşması və bu proseslərə münasibət bildirməsi siyasi analitik ifadəsini tapan bir məsələdir. Onun əvvəlki monoqrafiyalarında da Azərbaycan dövlətinin taleyüklü məsələlərinə məntiqli elmi münasibətlərini bildirməsi belə təhlil və şərhlərin, ciddi elmi, siyasi münasibətlərin nədən qaynaqlandığını dərk etməyə əsas verir.

"Tarix absurd teatrında tamaşa şəklində təkrarlanır. Bu, tarixdən lazımi dərs alanlar üçün gələcək təhlükələrin və itkilərin qarşısını almağa kömək edir, bu dərsləri mənimsəmək iqtidarında olmayanlar üçün isə keçmişin müasir "don geydirilmiş" hadisələri yeni faciəyə çevrilə bilər, özü də bu, təkcə Cənubi Qafqaz regionuna aid deyil" deyən müəllif dünyanın qlobal məsələlərinə güclü təsir edə bilən supergüclərin varlığını və təsir dairəsini düzgün dərk edərək nəticə çıxarmağın, düzgün yol tutmağın əhəmiyyətli olmasına diqqət yetirməyi tövsiyə edir.

Akademik Ramiz Mehdiyev Səfəvilər tarixinə dair əsər yazan müəlliflərdən fərqli olaraq, onların əldə edə bilmədiyi materiallardan, həmçinin məlum mənbələrdən də ustalıqla istifadə etmişdir. Çox maraqlıdır ki, o, monoqrafiyada respublikada humanitar elmlərin taleyi barədə şərhində bir alim kimi bu elmlərin təhlilə və obyektiv tənqid metoduna keçməli olduğunu məsləhət görür və bununla bərabər gərəksiz pafosa, sözçülüyə son qoyulmasının vacibliyinə dair tənqidi fikrini də bildirir.

Akademik müasir tədqiqat metodikasını daha fəal şəkildə mənimsəməyə çağırır. Bu çağırış vaxtında və yerində olduğu qədər də müqəddəs bir işdir. Çünki dünyanın bu həqiqətləri başa düşməsi və qəbul etməsi üçün onları bilməsi vacibdir. Həqiqətləri müasir oxucuya çatdırmaq üçün də müasir və aktual metodologiyaya yiyələnmək lazımdır. Müasir tədqiqat metodları dedikdə ilk növbədə ən azı yaşı yüz ildən artıq olan mənbələrə və qədim məxəzlərə dövrünün gözü ilə və eləcə də müasir gözlə baxmaqla obyektiv tədqiq etmək başa düşülür.

Əsərdə xüsusi olaraq xəbərdarlıq edilir: "Elmimizin rəqabətə davam gətirməsi və Azərbaycan xalqının tarixi və mədəni irsini yenidən yazmaqda, özlərinin xeyrinə təhrif etməkdə və mənimsəməkdə maraqlı olan qüvvələrin güclü, ardıcıl təbliğatına qarşı dözüb dayanması çox çətin olacaq". Azərbaycan alimləri humanitar sahədə olduğu kimi, ictimai elmlər sahəsində də diqqətli olmadıqca "bizim tarixi yaddaşımız beləcə qısa və səthi səviyyədə qalacaq" deməklə akademik müasir tarix elmimizin inkişaf səviyyəsinin aşağı olmasını, yeni metodlara uyğunlaşması əvəzinə yeni tədqiqat metodlarını elmə gətirmək istəyənlərin qarşısını "qılınc-qalxan"la kəsmək, "div rolu" oynamaqdansa onlara yol açmağın, şərait yaratmağın zəruriliyini xatırladır.

Müəllif ermənilərlə bağlı tarixi prosesləri müasirliklə əlaqələndirərək qeyd edir: "Ermənilərin yalnız azərbaycanlılara və ya türk xalqlarına qarşı münasibətdə belə kökləndiklərini deyə bilmərəm. Onlarda bu xüsusiyyətlər uzun əsrlər boyu məcburiyyətdən məskunlaşma metodunu dağıtmaq üçün formalaşmışdır. Bu, həmçinin müxtəlif mənşəli etnosların və müxtəlif psixologiyaların iştirak etdiyi ermənilərin etnogenezinin tarixi ilə bağlıdır. Hartlessness onların xarakterinin əsas xüsusiyyətidir. Keçmişin gerçəklikləri bizdən həmişə ayıq olmağımızı və onlarla ünsiyyət zamanı erməni xəyanətkarlığını xatırlamağı tələb edir". Akademik burada erməni xarakterinin digərlərinə, o cümlədən Azərbaycan xalqına nə bəlalar gətirdiyini yaddan çıxarmamaq xəbərdarlığını edir.

Akademik Ramiz Mehdiyevin bir sıra tədqiqat sahələrinin spesifik xüsusiyyətlərinin olduğunu nəzərə almaqla tarixi tədqiqatların bu sırada mühüm rol oynamaq imkanlarına xüsusi diqqət yetirir və mövcud vəziyyəti qeyd edirsə, eyni zamanda ermənilərin Azərbaycan tarixinə münasibətinə dair alim fikrinin səviyyəsinə münasibət bildirir: "...Azərbaycan alimləri bütün güclərini XIX əsrin sonu - XX əsrin əvvəllərində ermənilərin cinayətlərini işıqlandırmaq üçün sərf edərkən erməni xalqının psixologiyasına lazımi diqqət ayırmağı unudurlar, eləcə də ermənilərin antidövlət fəaliyyəti faktını, Qriqorian kilsəsinin xüsusiyyətini, erkən dövrlərdə - Qafqaz Albaniyası, Səfəvilər, Əfşarlar, Qacarlar və d. Azərbaycan dövlətlərinin əleyhinə mübarizəsini müəyyənləşdirmək və başa düşmək çətindir. Məhz orta əsrlər dövründə Qriqorian kilsəsinin razılığı və əlbirliyi olmadan ermənilərdən, yeri gəlmişkən, casusluq, təhdid və separatizm aləti kimi Səfəvi imperiyasını öz iqtisadi və siyasi təsiri altına salmaq, həm də Yaxın və Orta Şərqdə effektli kəşfiyyat şəbəkəsi yaratmaq məqsədilə əvvəlcə Qərb dövlətləri, sonra isə Rusiya aktiv istifadə etməyə başlamışlar". Müəllif burada Azərbaycan orta əsrlərdə mövcud olmuş nəhəng imperiyası - Səfəvilər dövlətinə qarşı Rusiya və Qərb dövlətlərinin dağıdıcılıq siyasətini ciddi təhlil etmiş, eyni zamanda bu siyasətin həyata keçirilməsi üçün ermənilərdən istifadə məsələsinə münasibət bildirmişdir.

Akademik Ramiz Mehdiyev Qriqorian kilsəsinin məqsədyönlü şəkildə antiazərbaycan fəaliyyətinin əsas səbəbini də şərh etmişdir. "Bütün tarixi faktlar bizə Səfəvilər dövləti ərazisində olan Qriqorian kilsəsinin fəaliyyətinin bir məqsədini - Azərbaycanın və İranın zəngin bazarları və çoxsaylı material resurslarından istifadə etməsi üçün bu torpaqlarda xristian dövlətlərinin köməkliyi ilə müstəqil erməni dövləti yaratmaq üçün daim cəhd göstərməsini hesab etməyə əsas verir".

Monoqrafiyada Qriqorian kilsəsinin fəaliyyətinin məqsədi olduğu kimi şərh edilir. Bununla birgə ermənilərin vaxtilə əlverişli bir ərazidə özləri üçün dövlət yaratmaq niyyətində olduğuna işarə edilir. Eyni zamanda göstərilir: "Doğrudur, ədalət naminə qeyd etmək lazımdır ki, bu məsələ bəzi azərbaycanlı müəlliflər tərəfindən qaldırılıb, lakin bu işlərin davamı və müvafiq cavabı olmayıb".

Tarixdə ermənilərin xarakterini, erməniliyin mahiyyətini konkret şəkildə şərh edən akademik Ramiz Mehdiyev bu problemin müasir tarixdə roluna da diqqəti cəlb edir: "Keçmişdə bu, belə idi, biz bunu əyani şəkildə müasir dövrdə də görürük. Buna görə heç bir dövlət hakimiyyəti belə fikirlərə aldanmamalıdır ki, o, ermənilərin xidmətindən istifadə edir. Vaxtilə Azərbaycan türk imperiyasının və Osmanlı Türkiyəsinin hökmdarları bu səhvi etmişlər. Onlar bu dövlətlərin ərazisində yaşayan erməni azlığının özünəməxsus xarakterik xüsusiyyətlərini nəzərə almamış, bunun da hesabını ödəmişlər".

Burada tarixi prosesləri düzgün qiymətləndirməməyin acı dərslərindən nəticə çıxarmaq tövsiyə olunur: "Belə mürəkkəb problemlərin öyrənilməsi prosesində müşayiət olunan bütün çətinlikləri mən çox yaxşı dərk edirəm, vətən tarixçilərini bu mövzuya üz tutmağa çağırıram. Bu mövzunun tədqiqi mənbələrdən yaxşı baş çıxaran, Şərq, Qərbi Avropa dillərində, eləcə də erməni dilində məlumatlı professional mütəxəssislərin olmasını tələb edir" deyən müəllif problemə ciddi yanaşmağı, belə mövzuları dərindən tədqiq etməyi tövsiyə edir.

Monoqrafiyada elmi tədqiqatların düzgün aparılması üçün vacib olan məsələlərə diqqət yetirilməsi tövsiyə olunur: "Biz yalnız bu cür mütəxəssislərin birgə səyləri nəticəsində təkcə ictimaiyyətimiz tərəfindən deyil, ən başlıcası, ermənilərin təbiətini öyrənən xarici alimlər və ekspertlər tərəfindən məmnuniyyətlə qəbul ediləcək keyfiyyətcə yeni nəticələr əldə edə bilərik".

Məsələnin mahiyyətini və qoyulmuş problemin həllinin vacibliyini nəzərdə tutaraq bildiririk ki, Azərbaycanda bu istiqamətdə işlər aparılır. Belə ki, gec də olsa, belə mütəxəssislərin bir araya toplanması və fəaliyyəti başlanmışdır. Bu, öz təsdiqini AMEA Qafqazşünaslıq İnstitutunun yaradılmasında tapmışdır. Bu imkandan səmərəli istifadə etməklə akademik alimin istəklərini həyata keçirmək mümkündür. Bunun üçün yalnız diqqət, qayğı və həmçinin tələbkarlıq lazımdır.

Akademik bildirir: "Sirr deyil ki, son illərdə Azərbaycanın ictimai elmlər sahəsi yüksək səviyyədə mütəxəssislərin olmamasından çox ciddi əziyyət çəkir ki, bu da tədqiqat mövzusunun seçilməsinə yetinə çox ciddi təsir göstərir. Bu vaxta qədər elmi ictimaiyyətin nümayəndələrinin - şərqşünaslar, tarixçilər və mənbəşünasların uğursuzluğunu ən azı bu fakt əyani şəkildə göstərir ki, Heydər Əliyev Fondunun aktiv köməyi ilə Vatikan arxivindən gətirilmiş zəngin tarixi materialları cəmiyyətə təqdim etmək mümkün olmamışdır".

Akademik bildirir: "Şübhəsiz ki, mövcud olan problemlərin obyektiv şəkildə aradan qaldırılması müəyyən vaxt tələb edir, lakin biz o faktı nəzərə almalıyıq ki, hər bir itirilən il bizim opponentlərimizə yalanlarını dünya ictimaiyyətinə şüuruna maneəsiz təqdim etməyə, onu aldatmağa davam edir".

Burada söhbət hər şeyi vaxtı keçmədən etməyin əhəmiyyətinə diqqət yetirməkdən və əks məlumatların çox yayılmadan qarşısının alınmasından gedir. Həqiqətən də elmi prinsipiallıq olmadan, bu prinsipiallığı dövlətinin və millətinin mənafeyinə uyğun olaraq səfərbər etmədən göstərilən fəaliyyətə heç nə ilə bəraət qazandırmaq mümkün deyil.




Akademik Ramiz Mehdiyev yazır: "Bununla bərabər, Azərbaycan xalqının və dövlətinin tarixinin ağ səhifələrini doldurmağa başlamaq üçün bu gün bütün şərait var. Burada nəyin üzərində düşünmək üçün də əsas var".

Sonra Papa Fransiskin sözlərinə müraciət edərək bildirir: "Bu gün bəzi dövlətlərin hökumətlərinin məsuliyyətsizliyi səbəbiylə bütün dünya müharibə vəziyyətindədir. Xalqların məcburi köçləri var. Dünyadakı problemli bölgələrdən Avropaya kütləvi miqrasiya buna açıq bir sübutdur. Qərb qısafikirli siyasət nəticəsində xaricdən tətbiq olunan qaydalarla yaşamaq istəməyənlərin üzərinə daimi terror hərəkətləri üçün bir hədəf halına gəlmişdir" deməklə müasir dünyanın, baş verən faciələrin fəlsəfi mənasına, məntiqi dərkinə diqqət yetirir. Bunu Azərbaycan Respublikasının ən ağrılı problemi ilə əlaqələndirir: "Bölgəmizdə baş verən proseslər, o cümlədən Dağlıq Qarabağa aid olanlar və Ermənistanın təcavüzkar ambisiyaları beynəlxalq geosiyasətin tərkib hissəsidir. Buna görə yalnız obyektiv düşünmək, vətən tarixini və regionumuzdakı müasir prosesləri işıqlandırmaq bizi yeni səhvlərdən xilas edə bilər".

Akademik Ramiz Mehdiyev "Erməni tarixşünaslığının Dağlıq Qarabağ xristian əhalisini yalnız etnik ermənilərə vermək üçün çoxsaylı davamlı cəhdlərinə baxmayaraq, alban təbəqəsinin aparıcı rolu yerli şərqşünaslar və tarixçilər arasında az da olsa şübhə doğurmur" deyir. O, V.N.Leviatovun fikirlərinə müraciət edir: "Demək lazımdır ki, Dağlıq Qarabağ ermənilərinin əksəriyyəti, azərbaycanlılar kimi, albanların nəsillərindən, yerli əhalinin köklü sakinlərindən idi. Qədim zamanlardan etibarən Qarabağda məskunlaşan albanların bir hissəsi Ərəb xilafətinin hakimiyyəti dövründə müsəlmana çevrilmiş, digər hissəsi xristianlıqda qalmaqda davam etmişdir. Alban xristianlar ermənilərlə dini yaxınlıqları olduğu üçün erməniləşdirilməyə məruz qaldılar. Beləliklə, zaman keçdikcə Qarabağ əhalisi arasında fərq əmələ gəldi". Belə olduğu halda bu fərqdən istifadə edərək imperiya nökərlərinin Qarabağ regionunu "etnik münaqişə poliqonu"na çevirməsinə, burada bitib-tükənməyən faciələr törətməsinə nə ad vermək olar?! Ona görə də bu proseslərə müxtəlif üfüqlərdən baxmaq məcduriyyəti yaranır ki, bu da təbiidir.

Erməni tarixçilərinin nədənsə hər dəfə söhbət Dağlıq Qarabağın xristian məliklərindən gedərkən Qarabağın qərbindəki Qıştaq məliklərinin üzərindən sükutla keçərək yalnız tanınmış Xaçın, Gülüstan, Vərəndə, Dizak və Çaraberd haqqında məlumat verməsi məsələsinə də monoqrafiyada toxunulur. Bu məsələ barədə deyilir: "Bunun səbəbi, çox güman ki, bu məliklərin alban mənşəli olması, eləcə də onun Səfəvi oriyentasiyasının tutarlı olması idi. Ümumiyyətlə demək olar ki, Dağlıq Qarabağın bütün məlikləri, erməniləşdirilmələrinə baxmayaraq, alban mənşəli idilər".

"Qarabağ məlikləri haqqında sonrakı dövr rəsmi sənədləri susur" deyən müəllif XIX əsr əvvəllərində baş verən prosesləri yığcam şəkildə xatırladaraq vurğulayır: "...Xarici yazarlar Dağlıq Qarabağ ərazisində erməni məliklərinin tarixi mövcudluğunu sübut etməyə çalışmazdan əvvəl düzgün düşünməlidirlər".

Azərbaycan tarixinin obyektiv və hərtərəfli mənzərəsi milli özünüdərkin möhkəm dayaqlarının formalaşması baxımından da vacibdir. Keçmişini bilməyən, düşmənləri və ənənəvi problemləri ilə tanış olmayan bir millət özünü dərk etmək və qorumaq iqtidarında deyildir. Bu aksiom xalqların tarixində artıq çoxdan sübut edilmişdir. Buna görə bizim tədqiqatçılarımız vətən tarixinin ən mürəkkəb və problemli məsələlərini cəsarətlə qaldırmalı və onların fəal şəkildə öyrənilməsinə çalışmalıdırlar. Elmin inkişafının müasir mərhələsində artıq çeynənmiş, öz praktiki və elmi əhəmiyyətini çoxdan itirmiş mövzu və problemlərin kənara qoyulması çox vacibdir. Prioritet sahələri müəyyənləşdirmək, həssas cəhət və aspektləri üzə çıxarmaq, onların keyfiyyətli həllinə girişmək lazımdır. Akademik bu cür problemlərin təkcə Səfəvilər dövlətinin deyil, Qafqaz Albaniyasından başlamış Azərbaycan Xalq Cümhuriyyətinə qədər olan dövrlərdə Azərbaycan ərazisində mövcud olmuş digər dövlətlərin tarixində də olduğunu xüsusi vurğulayır. O bildirir və təkrarən vurğulayır ki, tədqiqatçılar "tarixin artıq çeynənmiş, özünün praktiki və elmi əhəmiyyətini çoxdan itirmiş mövzu və problemlərini bir kənara atmalıdırlar" *(s.151)*.

Monoqrafiyada taleyüklü məsələlərin şərh edilməsi üçün daha nələrin əhəmiyyət kəsb etməsi xüsusi bir ustalıqla verilir: "Dünya ermənilərinin siyasətini təbliğ etməkdə Qriqorian kilsəsinin konsolidə və siyasi təşkilatçılıq rolunun az öyrənilməsi və eləcə də xarici arxiv materiallarının çatışmaması bu işin hazırlanmasında mənə çox sayda mənbədən istifadə etmək imkanı vermədi. Bununla əlaqədar mən bu məsələ ilə bağlı bəzi istiqamətləri göstərməyə, onun ideoloji əsasını tərtib etməyə çalışdım. Şübhə etmirəm ki, o dövrün orijinal mənbələrinin aşkarlanması, öyrənilməsi və tərcüməsi sayəsində sonralar zəngin faktiki əsasla daha geniş tədqiqat həyata keçirilə bilər". Yüksək elmi və zəngin həyat təcrübəsinə malik olan müəllifin bu taleyüklü məsələlərlə bağlı tövsiyələri bu sahədə işlər aparmaq üçün tərtib etdiyi ideoloji əsasın böyük əhəmiyyətinin olacağına, zəngin faktiki əsaslarla daha geniş tədqiqatların həyata keçiriləcəyinə heç bir şübhə doğurmur.

Maraqlıdır ki, dünyada xalqların dinc həyatına müdaxilə edərək onu pozmağa çalışan çox böyük qüvvələr var. Həmin qüvvələr istənilən xalqın nümayəndələrindən ibarət agentləri, xəyanətkarları tapa, yetişdirə bilirlər. Onları alətə çevirib istədiklərinə nail ola bilirlər. Buna məcbur edilənlər nə dərəcədə tarixi cinayət törətməsini bilib-bilməməsindən asılı olmayaraq, belə əməllərinin dəhşətli nəticəsini əvvəlcədən dərk edə bilmirlər.

Məlumdur ki, vaxtilə Rusiya və Osmanlı imperiyaları kimi nəhəng dövlətləri bu yolla dağıtdılar. Bütün bunlar millətlərarası ədavəti qızışdırmaq yolu ilə həyata keçirildi. Ədavət yaratmağa və onu dərinləşdirməyə xidmət edən vasitələr Qərb ölkələrində meydana çıxır, öz rolunu oynayırdı. Belə ki, bir sıra ölkələrdə məqalələr, kitablar və broşürlər nəşr edilir, müxtəlif dillərə tərcümə edilərək yayılır, faciələrin baş verməsinə səbəb olurdu.

Beləliklə, hesab edirik ki, akademik Ramiz Mehdiyevin XVII əsr - XVIII əsrin birinci rübündə Səfəvilər dövlətinə qarşı Qriqorian kilsəsinin siyasi-ideoloji fəaliyyətini əks etdirən "Qriqorian kilsəsi Səfəvilər dövlətinə qarşı casusluq aləti kimi" adlı monoqrafiyası son dərəcə dəyərli əsər kimi alimlərin, xüsusilə də humanitar və ictimai elmlər sahəsində çalışanların və tədqiqatçıların masaüstü kitabı olacaqdır.

***Qasım HACIYEV,***
***AMEA Qafqazşünaslıq İnstitutunun Ermənişünaslıq şöbəsinin müdiri,***
***tarix üzrə elmlər doktoru***



# QANLI YANVAR - 29 İL





## Xalqımıza qarşı məkrli siyasətin növbəti təzahürü

Azərbaycan xalqının başına havadarlarının köməyilə ermənilər tərəfindən gətirilmiş bəlalar, kütləvi qırğınlar, talanlar və soyqırımı siyasəti barəsində yalnız XX əsrin səksəninci illərinin sonundan və doxsanıncı illərin əvvəllərindən başlayaraq açıqlamalar verilməyə başlanılmışdır.

Etiraf etmək lazımdır ki, müstəqillik illərinə qədər xalqımıza qarşı törədilən faciələr barədə daha çox fakt, sənəd, həqiqət bilməyə cəhd etdiyimiz halda, ən yaxın tariximiz olan XX əsrin əvvəlləri və 1918-1920-ci illərdə olmuş erməni vəhşiliyi barəsində özümüzə və dünyaya çatdıra biləcəyimiz səviyyədə təbliğat maşını yarada bilməmişdik. Məmləkətimizin bütövlüyünün qorunması, erməni qırğınının qarşısının alınmasında misilsiz xidmətlər göstərmiş xalq qəhrəmanları səviyyəsinə yüksəlmiş igid oğullarımız barəsində qədərincə yazmamış və onları xalqa tanıtdıra bilməmişdik. Şükürlər olsun ki, müstəqillik illərində bir daha yəqin edilmişdir ki, biz ziyalılar qarşısında unutqan yaddaşdan təmizlənməkdən daha vacib məqsəd dayanmır. 70 illik yasaqdan və təhrikdən sonra indi aşkarlıq işığında aparılan tədqiqatlar və araşdırmalar nəticəsində aydın olmuşdur ki, tarixə və soykökə bağlılıq, milli tariximizin öyrənilməmiş səhifələrinin araşdırılması indi daha mühüm əhəmiyyət kəsb edir. Son illərə qədər millətlərarası münasibətlər və ümumilikdə xalqımızın başına gətirilən bəlalar səhv təlqin edilərək çatdırılmışdır. Ən dəhşətlisi budur ki, 70 il qadağalarla, saxta beynəlmiləlçilik təbliğatı ilə faciəmizi bizə unutdurmuşlar. Xalqımızın sirri açılmamış çox səhifələri vardır ki, bugünkü və gələcək nəsillərimiz bunları bilməlidir. Çünki bunlar bilindikcə 20 Yanvara gedən yol bilinəcəkdir. Bu mənada xalqımızın keçdiyi yola nəzər salmaq, torpaqlarımızın bütövlüyünə zərbə vuranlara qarşı igidlik nümunəsi göstərənlərin fəaliyyətini işıqlandırmaq məqsədilə gerçək tarixə müraciət etmək daha məqsədəuyğundur.

Xalqımıza qarşı törədilən amansız faciələrin dərin tarixi kökləri var. Tarixi gerçəkliyi izləyərək görürük ki, ermənilərin 1918-ci ilə qədər müstəqil dövlətçiliyi olmayıb. Erməni başçıları "böyük Ermənistan" yaratmaq xülyası ilə XVII əsrdən dünyanın iri dövlətlərinə müraciət etmişlər. Rusiya və Qərbin bəzi iri dövlətləri yaxın şərqdə hökmranlıq etmək, İran və Türkiyəni zəiflətmək məqsədilə erməniləri dəstəkləmişlər.

Mənbələr göstərir ki, ermənilərin Cənubi Qafqazda yerləşməsi müəyyən mərhələlərdən keçmişdir. Bu prosesdə XVI-XVII əsrlər və XVIII əsrin ilk rübündə baş vermiş Səfəvi-Osmanlı müharibələrinin və Rusiya imperatoru I Pyotrun xüsusi rolu olmuşdu. Məhz buna görə də XVII əsrin sonu və XVIII əsrin birinci yarısında erməni ideoloqlarının Qərbi Avropa və Çar Rusiyasına təqdim etdiyi plan və layihələrdə nəzərdə tutulan erməni dövlətinin, əsasən Səfəvi dövlətinə məxsus Azərbaycan ərazilərində və Osmanlı dövlətinin Şərqi Anadolu torpaqlarında qurulması planlaşdırılırdı.

Rusiya imperiyasının Qafqaz siyasətinin tərkib hissəsi kimi "erməni məsələsi" əsas götürülürdü. Həm I Pyotr, həm də II Yekaterina Qafqazın, xüsusilə Cənubi Qafqazın işğalında bu faktora xüsusi üstünlük vermişdir. 1721-ci ildə Qafqaza yürüşə çıxan və 1723-cü ildə Azərbaycanın Xəzəryanı ərazilərini, Bakını işğal edən I Pyotr sentyabrın 3-də Bakının alınmasını bayram etdi. Bakı şəhəri rus komendantı knyaz Bryatinskinin idarəsinə verildi. 1724-cü ilin 10 noyabrında I Pyotr 3 erməni katolikosunu qəbul etmiş, onların ermənilərin Xəzəryanı vilayətlərinə köçürülmələri barədə xahişlərini dinləmişdir. I Pyotr yerli əhalinin sərt müqavimətini gördükdə, "erməni kartını işə salmış və azərbaycanlıların tarixi torpaqlarında, xüsusilə Gilanda, Mazandaranda, Bakı və Dərbənddə ermənilərin məskunlaşdırılması barədə göstəriş vermişdi. I Pyotrun xələflərinə ünvanladığı tarixi vəsiyyət isə təkcə Rusiya imperiyasının deyil, nəticə etibarilə bolşevik Rusiyasının da Cənubi Qafqaz siyasətinin əsasını təşkil etmişdi.

I Pyotr tərəfindən irəli sürülən tarixi vəzifələrin həyata keçirilməsində ermənilərə xüsusi rol ayrılmışdır. Ermənilər bu rolu uğurla yerinə yetirməkdə geniş və hərtərəfli imtiyazlar almışlar. Bunlar hüquqi-siyasi cəhətdən I Pyotrun erməni xalqına 1724-cü il 10 noyabr tarixli əlahəzrət fərmanında, II Yekaterinanın 1768-ci ildə imperiyanın ermənilərə məxsusi hamiliyi barədə fərmanında, I Pavelin manifestində, 1802-ci ildə çar I Aleksandrın Qafqaz canişini A.Sisianova konkret təlimatında, 1828-ci il Türkmənçay müqaviləsinin 15-ci maddəsində, 1829-cu il Ədirnə müqaviləsinin 13-cü maddəsində öz əksini tapmışdır. II Yekaterinanın birbaşa göstərişi ilə hazırlanan planlarda İrana və Türkiyəyə qarşı Cənubi Qafqazda Rusiyanın siyasi və strateji forpostuna çevriləcək vassal xristian dövləti əsasən Qarabağ və İrəvan xanlığı və həmçinin Azərbaycanın Xəzərsahili ərazilərində "Alban çarlığı" formasında qurulması nəzərdə tutulurdu.

Bütün bunlar bir daha çar Rusiyasının erməni dövləti yaratmaq niyyətinin ermənilər üçün deyil, daha uzaqgörən bir siyasət olduğunu, imperiyanın məhz Cənubi Qafqazın işğalında ermənilərdən bir alət kimi yararlanmaq siyasətinin tərkib hissəsi olduğunu açıqca göstərir. XIX əsrin əvvəllərində Cənubi Qafqazın işğalını başa çatdıran Rusiya imperiyası artıq ermənilərin ortaya atdığı "böyük Ermənistan" ideyasının ağ yalan olduğunu bilə-bilə Cənubi Qafqazda "Erməni vilayəti"ni yaratdı. Bu qurumda aparıcı rolu sayca onlardan dəfələrlə çox olan azərbaycanlılara deyil, məhz azlıqda olan ermənilərə verdi.

Azərbaycan tarixinin saxtalaşdırılması ilk öncə, erməni kilsə xadimlərinin xüsusi göstərişi ilə sənədlər şəklində tərtib olunaraq həyata keçirilirdi. İrəvan xanlığı hələ işğal edilməmiş, 29 iyun 1827-ci ildə Üçkilsə katolikosunun göstərişi ilə İrəvan qalasının plan-xəritəsi tərtib edilərək Rusiya komandanlığına təqdim edilmişdir. Həmin plan-xəritədə İrəvan qalasının daxilində erməni kilsəsi təsvir edilmişdir. Çar Rusiyası tərəfindən İrəvan qalası işğal olunduqdan sonra burada azərbaycanlılara məxsus maddi və mənəvi abidələrimizin məhvinə, xristianlaşdırılmasına və ya erməniləşdirilməsinə başlanılmışdı. Bu iş dövlət səviyyəsində həyata keçirilirdi. Rusiya imperatoru I Nikolayın 13 noyabr 1827-ci il tarixli fərmanı ilə İrəvanın baş məscidi pravoslav yunan-rus kilsəsinə çevrildi. Digər mənbənin məlumatına görə, İrəvan qalasında yerləşən Rəcəb paşa məscidi rus-yunan kilsəsinə çevrilmişdir.

Türkmənçay müqaviləsindən dərhal sonra - 1828-ci il martın 21-də I Nikolayın fərmanı ilə İrəvan və Naxçıvan xanlıqlarının ərazisində "erməni vilayəti" təşkil edildi. Bu tarixi Azərbaycan torpaqlarında yaradılacaq gələcək Ermənistanın təməli idi. Həmin vaxtın rəsmi statistikasına görə, "erməni vilayəti"nin mərkəzi olan İrəvan şəhərində 7331 azərbaycanlı, 2369 erməni yaşayırdı. Buna paralel olaraq Tükrmənçay müqaviləsinin 15-ci bəndinə əsasən, İrandan 40 min erməni İrəvan, Qarabağ və Naxçıvana köçürüldü. Analoji proses XIX əsrdəki - 1829-cu və 1878-ci illərdəki Rusiya-Türkiyə müharibələrinin yekununda da özünü göstərdi. Türkiyə ərazisindən təxminən 85 min erməni köçürülərək sözügedən bölgələrə məskunlaşdırıldı. Çarizmin köçürmə siyasəti Qarabağda və İrəvanda demoqrafik tərkibi dəyişdi. 1832-ci ildə Qarabağ əhalisinin 91 faizini azərbaycanlılar, 8,4 faizini isə ermənilər təşkil edirdi. 20,546 ailədən 13,965-i azərbaycanlılar, 6491-i isə ermənilər idi. Köçürmə siyasəti nəticəsində azərbaycanlıların faizi 64,8 faizə endi, ermənilərin faizi isə 43,8 faizə qalxdı.

XIX əsrin sonunda İrəvan quberniyası azərbaycanlıların sayına görə Bakı və Yelizavetpol quberniyalarından sonra Qafqazda üçüncü yeri tuturdu. Rusiya imperiyasında ilk dəfə olaraq əhalinin siyahıya alınmasında əldə olunan göstəricilərə görə, 1897-ci ildə İrəvan quberniyasında 313 min 178 azərbaycanlı yaşayıb. 1914-cü ilədək İrəvan quberniyasının əhalisi 40 dəfə artaraq 570 min nəfər olmuşdu. Lakin Azərbaycan əhalisinin sayı cəmisi 4,6 dəfə artmışdı. Hətta bu qədər sıxışdırma və deportasiya müqabilində yenə 1916-cı ildə İrəvan əhalisinin təxminən 45 faizi, yəni 247 min nəfəri azərbaycanlılar idi.

Azərbaycan, Türkiyə və Gürcüstan ərazisində "böyük Ermənistan" qurmağı niyyətləyən, qərbin hakim dairələri tərəfindən şirnikləndirilən erməni separatçıları 1862, 1878, 1884-cü illərdə Türkiyənin Zeytun, 1880-cı ildə Samsun və 1884-cü ildə Van vilayətlərində qanlı faciələr, qırğınlar törətmişlər. 1896-cı ildə İstanbul poçtxanasını partlatmış və neçə-neçə günahsızı qanına qəltan etmişlər. Bundan sonra erməni millətçiləri mübarizəni Qafqaza keçirmişlər. 1887-ci ildə Cenevrədə "Qnçaq", 1890-cı ildə, Tiflisdə "Daşnaksütyun" və 1895-ci ildə Nyu Yorkda "Erməni Vətənpərvərləri İttifaqı" kimi siyasi terror təşkilatlarını yaratmışlar.

Ermənilər 1905-ci il rus inqilabının başlanması ilə ölkədə yaranmış hərc-mərclikdən istifadə edərək İrəvanda, Bakıda, Şuşada, Gəncədə, Qazaxda və digər yerlərdə milli qırğınlar törətdilər. Şuşada qırğına başlamaq üçün Zarıslı kəndində atdan yıxılaraq başı qanamış ermənini ata mindirərək şəhərin mərkəzinə gətirib ucadan qışqırırmışlar ki, görün türklər ermənini nə hala salıb. Kimi gözləyirsiniz. 1905-ci ilin fevralın 6-9-da və avqustun 20-25-də İrəvanda, Şuşada, Zəngəzurda bir neçə dəfə başlanan kütləvi qırğınlarda minlərlə azərbaycanlını qətlə yetirmiş və kəndləri talan etmişlər. Xankəndidə doğulub boya-başa çatmış, qırğınların şahidi olmuş Ohanes Apresiyan xatirələrində qeyd edir: "Rus-Kazak birləşmələri türkləri və erməniləri bir-birinə savaşdırırdılar. Onlar deyirdilər ki, biz gündüzlər sakitliyi bərpa edirik. Gecələr sizin evlərin qonağıyıq. Onda nə bilirsiz edin". Törədilən qırğın və fəryadın səsindən qulağıma pambıq tıxamağa məcbur olurdum.

1905-07-ci illər inqilabından sonra da azərbaycanlıların soyqırımı örtülü şəkildə davam etdirilirdi. Bunu statistik məlumatlar da təsdiqləyir. 1914-cü ildə başlanan I Dünya müharibəsi və 1917-ci il inqilabları ermənilərin "böyük Ermənistan" iddiası üçün əlverişli şərait yaratdı.

1915-ci ilin əvvəlində Türkiyənin şimali-şərq bölgələrinin erməni əhalisi Osmanlı dövlətinə qarşı müharibəyə və türklərə qarşı kütləvi qırğınlara başladı. Bunun cavabında Osmanlı dövləti erməni əhalisinin o ərazilərdən kütləvi şəkildə köçürülməsi barədə əmr verdi. Erməni dönüklüyünü zərərsizləşdirmək üçün Osmanlı dövləti onları Ərzurum, Qars, Van və digər ərazilərdən cənuba - Suriya sərhədlərinə köçürməyə məcbur olmuşdu. Xain xislətli ermənilər sonralar, o zamankı hadisələrdən "erməni soyqırımı"nın törədilməsi adı altında öz məqsədləri üçün istifadə etmişlər və indi də istifadə etməkdədirlər. Əslində, Türkiyə vətəndaşı olan ermənilər xainlik edərək ruslar tərəfindən türklərə qarşı vuruşmuşlar. Bu məqsədlə könüllü dəstələr yaratmışlar.

Məlum hadisələr zamanı erməni hərbi dəstələri ilə birlikdə İrəvan quberniyasına, Qarabağa və Zəngəzura böyük miqdarda Erməni əhalisi də köçüb gəlmişdi. Onlar bu ərazilərdə azərbaycanlılara divan tutmağa başladılar. 1918-ci ilin martına qədər İrəvan quberniyasında 199 azərbaycanlı kəndi dağıdılmışdı. Bu ərazidə yaşayan azərbaycanlıların bir qismi ermənilər tərəfindən qətlə yetirilmiş, qalanları isə Osmanlı ordusunun nəzarət etdiyi ərazilərə qaçmağa məcbur olmuşlar.

1918-ci ilin martında yenidən ermənilər Bakıda və ətraf rayonlarda qırğınlar törətmiş, on minlərlə əhalini qanına qəltan etmişlər.

Ermənilər və bolşeviklər qırğının dayandığı ilk günlərdən cinayətlərini ört-basdır etmək və özlərini təmizə çıxarmaq üçün vasitələr axtarırlar. "Erməni ziyalıları" antitürk təbliğat maşınını işə salırlar. Belə ki, soyqırımından az sonra erməni keşişi əvvəlcə Tiflisə, sonra isə Bakıya gəlir. Qayıdarkən deyir: "Mən Bakıya bir batman dərdlə gəldim, amma oradan 10 batman dərdlə qayıdıram. Ona görə ki, Bakının Türk-İslam şəhəri olduğunu gördüm". Erməni yepiskopu Baqrad isə qırğınlardan bir qədər sonra 1919-cu ilin payızında Bakıya gəlmiş ABŞ missiyasının başçısı general Harbarda təqdim etdiyi sənədlərdə mart hadisələrində ermənilərin iştirakını inkar edir. Şaumyandan daha da irəli gedərək qırğınlar zamanı 300 erməni və 700 müsəlmanın öldürüldüyünü iddia edir. Fikir formalaşdırır ki, döyüş Müsavatla Bakı Soveti arasında olmuşdur. Ermənilər isə bitərəf qalmışdır. Bax beləcə imkan düşdükcə müxtəlif yollarla törətdikləri qırğınları ört-basdır edir və yaxud da özlərini yazıq millət kimi dünyaya təlqin edirlər. Öz uydurmalarını dərsliklərə salır, yaddan çıxmasına heç cür imkan vermirdilər. Məsələn, məşhur erməni yazıçılarından biri - Daronyan ölüm ayağında öz xalqına vəsiyyət edir ki, "ey erməni, çöldə zəhərli bir ilan görüb öldürməsən, səni bağışlamaq olar, amma bir türk görüb onu öldürməsən, heç bir erməni səni bağışlamaz". Budur bizim nankor qonşularımızın arzuları.

Təəssüflər olsun ki, bolşevik işğalından sonra bu faciə nəinki unuduldu, hətta ona vətəndaş müharibəsi damğası vuruldu. Əsl günahkarlar kimi milli qüvvələr təqsirləndirildi. Müsəlman qanına susayan şaumyanlar milli qəhrəman səviyyəsinə yüksəldildi. Bakıda ən çox qan tökülən küçələrə onların adı verildi. Yaddaşımıza belə həkk edildi. Sonrakı, 1920-1930-cu illərdə də Azərbaycana qarşı eyni məkrli siyasət sovet Rusiyasının dəstəyi ilə davam etdirildi. Bundan şirniklənən ermənilərin patriarx-katolikosu Stalinə məktub yazıb dünya ermənilərinin sovet Ermənistanına gəlmək istədiklərini bildirmişdir. Stalin bu məktubun üzərinə 1945-ci il aprelin 19-da öz dəst-xətti ilə yazmışdır: "Razıyam, SSRİ XKS sədri Stalin".

*(Ardı var)*

***Şikar QASIMOV,***
***Azərbaycan Texniki Universitetinin İctimai fənlər kafedrasının müdiri, tarix üzrə elmlər doktoru, professor***

## Azadlıq və istiqlaliyyətdən keçən gün

*20 Yanvar - Bakının qan gölünə çevrilməsi zaman keçdikcə yaddaşlarda daha silinməz izlər salır. Günahsız insanların o müdhiş şənbə gecəsində qanlarına qəltan edilməsinə "fərman" verənlər nifrətlə xatırlanır, imperiyanın diz çökməsi uğrunda əzmlə mübarizə aparan azadlıq aşiqləri (yaşından asılı olmayaraq), ölümün gözünə dik baxaraq şərəflə şəhidlik zirvəsinə yüksələnlər isə ehtiramla, məhəbbətlə anılır. Çünki onlar elə həmin yaşdaca daşlaşmış ömür sahibinə çevrildilər. Vətənin mamır bağlayan daşı olmağı şərəf bilənlərimizin müqəddəs məkanları - Şəhidlər xiyabanı məhz buna görə əbədi olaraq ziyarət yerinə çevriləcək...*

Tarixi hadisələr, ictimai mahiyyətindən asılı olaraq, xalqın yaddaşına o zaman yazılır ki, sənət əsərlərinin də mövzusuna çevrilə bilsin. Bütün dövrlərdə istər münaqişələri, istər müharibələri, istərsə də digər fəlakətləri xalq necə yaşayıbsa, onun yetirdiyi yaradıcı övladları həmin hadisələri bədii ifadə vasitələri ilə yaddaşlara yazıblar.

### Haqqın səsi

Xalqımızın qan yaddaşına yazılan belə hadisələr az olmayıb. 20 yanvar 1990-cı il tarixi də yaddaşlara məhz qanla yazıldı. Təbii ki, imperiya caynaqlarından qurtulmaq o qədər də asan deyildi. Azadlığın verilmədiyi və zorla, qan bahasına alındığını da bura əlavə etməklə deyə bilərik ki, 20 Yanvar xalqımızın yaşadığı müsibətlər və faciələr silsiləsindən biri olsa da, qürur və iftixar mənbəyi, haqqın hayqırtısı, milli oyanış, birlik, əsl həmrəylik günüdür!

Ulu öndər Heydər Əliyev 1995-ci il yanvar ayının 18-də R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyində keçirilən "Qanlı Yanvar" rəssamlıq sərgisində çıxışı zamanı demişdir: "20 Yanvar hadisələrini bir faciə kimi təsvir etmək azdır. 20 Yanvar Azərbaycan xalqının milli azadlıq uğrunda, öz mənliyini müdafiə etmək yolunda göstərdiyi qəhrəmanlıq nümunəsidir. Ona görə də qəhrəman Azərbaycan balalarının tankın altına düşüb əzilməsi faktını göstərməklə kifayətlənməyib, onların qəhrəmanlığını, cəsurluğunu, ölümün gözünə dik baxaraq təcavüzkarın qarşısına çıxmalarını da təsvir etmək lazımdır. Şübhəsiz ki, kədərimiz, qəm-qüssəmiz böyükdür. Ancaq kədərlənməklə yanaşı, xalqımız göstərdi ki, Azərbaycanın qəhrəman oğulları o böyüklükdə Sovet İttifaqının ordusu qarşısında dayanmağa qadirdirlər".

### Şənbə gecəsinin səssiz fəryadları

20 Yanvardan ötən 29 illik zaman məsafəsindən baxanda o günlərin müdhişliyi, vahiməliyi ilə yanaşı, qəlbləri riqqətə gətirən, gəncliyin yenilməzliyinin, xalqımızın azadlıq səsinin heç bir imperiya cəlladları tərəfindən batırıla bilmədiyini görürsən. Təbii ki, hər bir xalq öz azadlığı və müstəqilliyi uğrunda apardığı mübarizə meydanlarında mətinlik, əyilməzlik dərsi keçir. Qanları ilə torpağa "Azadlıq" yazan şəhidlərimiz imperiyanın vandalizm, işğalçı, terrorçu, bir sözlə, antiinsani, antihumanist siyasəti qarşısına əliyalın çıxmaqla xalqımızın mübarizliyini və əzmkarlığını təsdiqlədilər. Şəhidlər xiyabanının hər vaxt ziyarət yerinə çevrilməsi də məhz buradan irəli gəlir.







20 Yanvar bədii sənət nümunələrində də öz əksini tapdı. Sözün ifadə edə bilmədiyini rəssamların qan daman fırçaları cızdı, Habil Əliyevin kamanı, Kamil Cəlilovun qaboyu şəhidlərimizə matəm və hüzn dolu "layla çaldı". O gecədən şəhidlərimizin anası obrazına çevrilən xalq yazıçısı Əzizə Cəfərzadənin dilindən qopan ağı-bayatılar, göylərə sovrulmuş ağ saçları bu fəryada qoşuldu: "Sən məni dəryaz kimi biç, nə qədər bacarırsan biç, amma mənim şəhidlərimin qanı torpağa toxum kimi düşüb. Hər yerdən boy verib cücərəcək.

Həmin o müdhiş gecə xalqımızın poeziya dilli Bəxtiyar Vahabzadə, Məmməd Araz, Nəbi Xəzri, Xəlil Rza Ulutürk, Nəriman Həsənzadə, Mədinə Gülgün, Məmməd Aslan, Cabir Novruz, Tofiq Mütəllibov, Şahmar Əkbərzadə, Nüsrət Kəsəmənli, Fikrət Qoca və digər vətənpərvər söz və qələm adamlarının misralarında boy verdi, boylandı, dağ-daşı yandırdı...

### Ağla, qərənfil, ağla...

Şəhidlər xiyabanını al-qırmızıya bələyən qərənfillər Məmməd Aslanın qələmində ağladı. Qərənfil yağışlı, matəm baxışlı misralar anaların ağısına qarışdı:

*Bu günahsız qanlara,*
*Bu didilmiş canlara,*
*Bu cansız cavanlara,*
*Ağla, qərənfil, ağla.*

Bəxtiyar Vahabzadənin Meydanda, düşmənə nifrət nidalı misraları xiyabanda fəryad qoparırdı:

*Şəhidlərin hamısı bənzəyir bir-birinə,*
*Bir bax qəbirlərinə!*
*Hamısı qıpqırımızı qərənfilə bələnmiş,*
*Hamısı bir biçimdə,*
*bir boyda cərgələnmiş,*
*Səbəb birdir, əməl bir,*
*hədəf birdir, hədə bir!*

Məhz bundan sonra bədii əsərlərdə şəhidlərin ölməzliyini və müqəddəsliyini təsdiq edən obrazlar yaradıldı. Təkcə poeziyada, nəsr və ya səhnə əsərlərində deyil, incəsənətin ayrı-ayrı növlərində 20 Yanvar aparıcı mövzuya çevrildi. Rəssamlıq sahəsində bu şərəfli tariximiz bəlkə də daha canlı, qanlı və obrazlı təsvir edildi.

Təsviri incəsənətin görkəmli nümayəndəsi, Dövlət mükafatları laureatı, "İstiqlal" ordenli xalq rəssamı Mikayıl Abdullayev 1992-ci ildə yaratdığı "Nakamların dəfni" əsəri ilə bir daha 20 Yanvarın zaman-zaman unudulmayacağını göstərdi. Hər il, bir qayda olaraq, istər beynəlxalq səviyyədə, istərsə də respublika miqyasında bu mövzuya həsr edilmiş əsərlərin sərgiləri keçirilir. Həmin sərgilərin birində Rəssamlar İttifaqının sədri, xalq rəssamı Fərhad Xəlilov belə dedi: "Xalq yaxşı günləri yaşadıqca faciələrinin də unudulmaması naminə onları gələcək nəsillərə çatdırmalıdır. Tarixin belə qanlı səhifələrinin yaddan çıxmaması üçün ən yaxşı vasitələrdən biri də bu əsərlərdir. Belə əsərlər nə qədər çox olarsa, həmin tarixi dünya xalqlarının diqqətinə çatdırmaq bir o qədər mümkünləşər və asanlaşar".

### Azadlığın şəfəq saçdığı gün...

20 Yanvar yalnız Azərbaycan xalqının deyil, bəşər tarixinin ən qanlı səhifələrindən biri, insanlığa qarşı təcavüzdür. Bununla yanaşı, unutmamalıyıq ki, Şənbə gecəsi qanla başlasa da, azadlığın şəfəq saçdığı günə çevrildi: imperiya cəlladlarının vəhşi simaları xalqımızın məğrurluğu altında əriyib yoxa çıxdı.

Oğul və qızlarımız tankların, ağır texnikanın, cəlladların təpikləri altında xıncım-xıncım olsalar da, qəhrəmanlıq obrazı yaratdılar. Bu hadisə Azərbaycan xalqının iradəsini və yenilməzliyini bütün dünyaya nümayiş etdirdi. Tariximizin bu səhifəsi incəsənət əsərlərində öz əksini tapdıqca o, yaddaşlarda daha dərin izlər buraxdı: tarixləşdi, heykəlləşdi. Qürur, fəxr yerimiz olan Şəhidlər xiyabanı vətənə, torpağa, anaya, könül sevdasına məhəbbətin ünvanına çevrildi.

Qrafika ustası Arif Hüseynovun "Qara tağlı natürmort", Fəxrəddin Əliyevin "Qara Yanvar" və Arif Ələsgərovun "20 Yanvar", həmçinin Koreyada keçirilən, 68 ölkədən 587 rəssamın qatıldığı 1760-dan artıq əsərin nümayiş etdirildiyi XIX Beynəlxalq Karikatura Sərgisinin mükafatçısı (birinci yerin qalibi), "Kirpi" satirik jurnalının baş rəssamı Hafiz Nəsiroğlunun əsərləri də xalqımızın imperiya təcavüzünə məruz qaldığı gecəyə həsr olunmuş bədii sənət nümunələri olmaqla yanaşı, yaddaşımızı silkələdi və daim ayıq-sayıq olmağa səslədi.

Kirman Abdinin 20 Yanvarla bağlı çəkdiyi plakatlar da diqqətçəkəndir. Tariximizin qan yaddaşını plakatlarda əks etdirən rəssamın bədii təxəyyülü ilə sənətkarlığı üst-üstə düşərək o gecənin dəhşətlərinin səbəbkarını, cəllad və qatillərini nifrətlə xatırladır.

20 Yanvar faciəsi, təbii ki, yalnız tanınmış xalq sənətkarlarının əsərlərində deyil, onların yetirmələrinin yaradıcılıq nümunələrində də öz əksini tapır. Bakı şəhəri 2 saylı Uşaq İncəsənət Məktəbinin şagirdlərindən Lalə Babayevanın, Fatimə Əbilovanın, Sevinc Məmmədovanın, Elvin Şahməmmədovun, Ülkər Əmirovanın, Ülkər Əliyevanın və onlarca digər azyaşlı rəssamların əsərləri bir daha onların vətənpərvər hisslərlə yaşadığını və bu mövzunun onlar üçün müqəddəs olduğunu təsdiqləyir.

Tarix bütün hadisələri özündə yaşadır. Bu mövzuya həsr olunmuş bədii sənət əsərlərində, o cümlədən incəsənət nümunələrində isə həm tarix yaşadılır, həm də xalqımızın qəhrəmanlığı təbliğ olunur.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşeinin fəaliyyətinin 20 illiyi münasibətilə tədbir keçirilib

Yanvarın 14-də Rus Pravoslav kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşeinin arxiyepiskop kimi fəaliyyətinin 20 illiyi münasibətilə tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən arxiyepiskop Aleksandr İşein Azərbaycanda bütün dinlərin və xalqların nümayəndələrinin dostluq və qardaşlıq şəraitində yaşadıqlarını bildirib. Multikulturalizmin və tolerantlığın xalqımızın həyat tərzinə çevrildiyini söyləyən Aleksandr İşein Azərbaycanın dini həmrəylik mühitinin və sivilizasiyalararası dialoqun təşəkkülündə və inkişafında mühüm rol oynadığını qeyd edib.

Yeparxiyanın ölkəmizdə 20 ildir fəaliyyət göstərdiyini vurğulayan Aleksandr İşein bildirib: “Azərbaycanda dini icmamızın fəaliyyəti üçün hər cür imkan yaradılıb. Bakıda icmamıza aid kilsələr fəaliyyət göstərir. Ölkədəki tolerant mühit hər bir dinin nümayəndəsinin sərbəst ibadətinə imkan verir. Bu sahədə dövlət siyasətinin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Bu siyasət hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Mən Prezident İlham Əliyev tərəfindən dəfələrlə ali mükafatlarla təltif olunmuşam. Bu, dini icmalara göstərilən diqqətin təzahürüdür”.

Arxiyepiskop qeyd edib ki, bu gün insanlar bəşəriyyətin inkişafını ləngidən və bu tərəqqiyə mənfi təsir göstərə bilən problemlərlə üzüzə qalıb. Bu problemlərdən biri də cəmiyyətdə dini və milli ayrı-seçkiliyin baş verməsidir. Bu problemlərdən öz siyasi məqsədləri üçün istifadə etməyə çalışan qüvvələrin olduğunu deyən arxiyepiskop deyib ki, din xadimləri dindən siyasi məqsədlər üçün istifadə edilməsinin qarşısını almalıdırlar.

Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Milad bayramı münasibətilə Azərbaycanın pravoslav xristian icmasına təbrik məktubunu oxuyub.

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə çıxış edərək pravoslav xristian icmasının nümayəndələrinə təbriklərini çatdırıb. Azərbaycanda millət və din fərqi olmadan hər kəsin dini ibadətlərini rahat şəkildə yerinə yetirdiklərini vurğulayan Şeyxülislam bildirib ki, dinindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşları Prezident İlham Əliyevin diqqət və qayğısını öz üzərində hiss edir.

Pravoslav dini icmasının üzvlərinin digər icmalarla daim dostluq və əməkdaşlıq şəraitində yaşadıqlarını vurğulayan Allahşükür Paşazadə diqqətə çatdırıb ki, icma ölkələrimiz və xalqlarımız arasındakı münasibətlərin inkişafı istiqamətində mühüm işlər görüb. Bu, həm də dinlər və sivilizasiyalar arasında dialoqun inkişafına böyük töhfə verir.

Tədbirdə Azərbaycanda akkreditə olunan diplomatik korpusun rəhbərləri və nümayəndələri, Milli Məclisin deputatları, ölkəmizdəki xarici dini konfessiyaların təmsilçiləri iştirak ediblər.

# Atəşkəs rejimi 24 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində, İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Fərəhli, Quşçu Ayrım, Qızılhacılı kəndlərində, Berd rayonunun Ayqedzor kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Nəmirli, Kəngərli, Xocavənd rayonunun Kuropatkino, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, yanvarın 15-də Tərtər rayonu ərazisində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Martin Şuster keçirəcəklər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru və Saymon Tiller aparacaqlar.

# Paytaxtda abadlaşdırılan növbəti həyət istifadəyə verilib



Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən, təmirsiz həyətlərin abadlaşdırılmasına yönəlmiş “Bizim həyət” layihəsi uğurla davam edir.

Yanvarın 14-də “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib. Yenilənmiş həyət Binəqədi rayonu, Fərman Məlikov küçəsi 1B, 1Q, 1A, 2A və 2 B ünvanlarında 2400 nəfərə yaxın sakinin yaşadığı binaları əhatə edir.

“Bizim həyət” layihəsinin əsas məqsədi ekoloji cəhətdən təmiz və abad həyətlərin modelləşdirilməsi, yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

“Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan və 1,0 ha sahəsi olan həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti də nəzərə alınıb və bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması və gənclərin asudə vaxtlarının səmərəli keçirmələri məqsədilə ərazidə uşaq oyun elementləri, müxtəlif idman qurğuları, mini-futbol və şahmat meydançası, uşaqlar üçün döşəməsi xüsusi örtüklə örtülmüş uşaq əyləncə mərkəzi quraşdırılmışdır. 8 ədəd söhbətgah və oturacaqlar qoyulmuş, binaların həyətində müasir işıqlandırma dirəkləri quraşdırılmışdır. Bu cür meydançaların salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzi sürmələrinə, sağlamlıqlarını möhkəmləndirmələrinə, asudə vaxtlarını səmərəli keçirmələrinə, o cümlədən onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılmasına nail olmaqdır.

Sakinlərin istək və maraqları nəzərə alınaraq binaların fasadları və giriş hissələri tam təmir olunaraq onların istifadəsinə verilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 100 ədəd ağac və kol əkilib və 4000 $m^2$ ərazidə yaşıllıq zolağı salınıb. Həmçinin sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə müşahidə kameraları quraşdırılıb.

Binəqədi rayonunda sakinlərin istifadəsinə verilmiş bu həyət layihə çərçivəsində abadlaşdırılan on dördüncüdür. Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur.

***Yasəmən MUSAYEVA, “Azərbaycan”***


## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tenderə dəvət edir*

**Tender 1 LOT üzrə keçirilir:**
**Ofis və dəftərxana ləvazimatlarının satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini imzalanıb möhürlənmiş, ikiqat zərflərdə yazılı təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər
**200 (iki yüz ) manat (ƏDV xaric) iştirak haqqını**
sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra “Bakı Telefon Rabitəsi” MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741,**
**hesab: AZ14AZPO91015461200420100157,**
**bank: Azərpoçt MMC PF 1,**
**kodu: 691011,**
**bankın VÖENi: 9900037711,**
**m/h: AZ76NABZ01350100000000094944,**
**S.W.İ.F.T: AZPOAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **19 fevral 2019-cu il saat 17:00-dək** aşağıdakı sənədləri “Bakı Telefon Rabitəsi” MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 2 faiz Bank Zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcək.

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
*4. Tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış.*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
*9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*
*10. Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını möhürlənmiş ikiqat zərfdə **27 fevral 2019-cu il saat 17:00-a qədər** “Bakı Telefon Rabitəsi” MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru **28 fevral 2019-cu il saat 15:00-da** “Bakı Telefon Rabitəsi” MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında keçiriləcəkdir.

Tenderlə əlaqədar daha ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**Əlaqələndirici şəxs: Məmmədov Faiq,**
**tel.: (+994 12) 498-39-29**

***Tender komissiyası***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tenderə dəvət edir*

**Tender 1 LOT üzrə keçirilir:**
**Taxta palet, dizel motorlu çəngəlli yükləyici, transpalet, elektrik çəngəlli yükləyici maşınların satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini imzalanıb möhürlənmiş, ikiqat zərflərdə yazılı təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər
**200 (iki yüz ) manat (ƏDV xaric) iştirak haqqını**
sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra “Bakı Telefon Rabitəsi” MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741,**
**hesab: AZ14AZPO91015461200420100157,**
**bank: Azərpoçt MMC PF 1,**
**kodu: 691011,**
**bankın VÖENi: 9900037711,**
**m/h: AZ76NABZ01350100000000094944,**
**S.W.İ.F.T: AZPOAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **19 fevral 2019-cu il saat 17:00-dək** aşağıdakı sənədləri “Bakı Telefon Rabitəsi” MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 2 faiz Bank Zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcək.

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
*4. Tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış.*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
*9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*
*10. Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını möhürlənmiş ikiqat zərfdə **27 fevral 2019-cu il saat 17:00-a** qədər “Bakı Telefon Rabitəsi” MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru **28 fevral 2019-cu il saat 15:30-da** “Bakı Telefon Rabitəsi” MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında keçiriləcəkdir.

Tenderlə əlaqədar daha ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**Əlaqələndirici şəxs: Məmmədov Faiq,**
**tel.: (+994 12) 498-39-29**

***Tender komissiyası***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tenderə dəvət edir*

**Tender 1 LOT üzrə keçirilir:**
**PKSV kabelinin satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini imzalanıb möhürlənmiş, ikiqat zərflərdə yazılı təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər
**100 (bir yüz ) manat (ƏDV xaric) iştirak haqqını**
sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra “Bakı Telefon Rabitəsi” MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741,**
**hesab: AZ14AZPO91015461200420100157,**
**bank: Azərpoçt MMC PF 1,**
**kodu: 691011,**
**bankın VÖENi: 9900037711,**
**m/h: AZ76NABZ01350100000000094944,**
**S.W.İ.F.T: AZPOAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **19 fevral 2019-cu il saat 17:00-dək** aşağıdakı sənədləri “Bakı Telefon Rabitəsi” MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 2 faiz Bank Zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcək.

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
*4. Tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış.*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
*9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*
*10. Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını möhürlənmiş ikiqat zərfdə **27 fevral 2019-cu il saat 17:00-a** qədər “Bakı Telefon Rabitəsi” MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru **28 fevral 2019-cu il saat 16:00-da** “Bakı Telefon Rabitəsi” MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında keçiriləcəkdir.

Tenderlə əlaqədar daha ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**Əlaqələndirici şəxs: Məmmədov Faiq,**
**tel.: (+994 12) 498-39-29**

***Tender komissiyası***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tenderə dəvət edir*

**Tender 3 LOT üzrə keçirilir:**
**LOT 1 Dizel generatorların ehtiyat hissələrinin satın alınması.**
**LOT 2 Kondisionerlərin ehtiyat hissələrinin satın alınması.**
**LOT 3 Kompressor siqnal qurğularının ehtiyat hissələrinin satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini imzalanıb möhürlənmiş, ikiqat zərflərdə yazılı təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər
**LOT 1. 150 (bir yüz əlli) manat (ƏDV xaric) iştirak haqqını**
**LOT 2 100 (bir yüz ) manat (ƏDV xaric) iştirak haqqını**
**LOT 3. 100 (bir yüz ) manat (ƏDV xaric) iştirak haqqını**
sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra “Bakı Telefon Rabitəsi” MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741,**
**hesab: AZ14AZPO91015461200420100157,**
**bank: Azərpoçt MMC PF 1,**
**kodu: 691011,**
**bankın VÖENi: 9900037711,**
**m/h: AZ76NABZ01350100000000094944,**
**S.W.İ.F.T: AZPOAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **19 fevral 2019-cu il saat 17:00-dək** aşağıdakı sənədləri “Bakı Telefon Rabitəsi” MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 2 faiz Bank Zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcək.

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
*4. Tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış.*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
*9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*
*10. Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını möhürlənmiş ikiqat zərfdə **27 fevral 2019-cu il saat 17:00-a** qədər “Bakı Telefon Rabitəsi” MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru **28 fevral 2019-cu il saat 16:30-da** “Bakı Telefon Rabitəsi” MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında keçiriləcəkdir.

Tenderlə əlaqədar daha ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**Əlaqələndirici şəxs: Məmmədov Faiq,**
**tel.: (+994 12) 498-39-29**

***Tender komissiyası***

*Vəkillər Kollegiyası Rəyasət Heyətinin məlumatı*

# Aidiyyəti dövlət qurumlarının DİQQƏTİNƏ!






Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin 27.09.2018-ci il tarixli qərarı ilə təsdiq edilmişdir.

AZƏRBAYCAN RESPUBLİKASININ VƏKİLLƏR KOLLEGİYASI

VƏKİL ORDERİ № ____

Tarixi: __ / __ / 20__

Vəkil qurumu (fərdi qaydada fəaliyyət göstərən vəkil): ____________
Adı, ünvanı, telefon nömrəsi (soyadı, adı və atasının adı)

Qərarın tarixi: ____________ Qərarın nömrəsi: ____________

Vəkil ____________
(Soyadı, adı, atasının adı və vəkil vəsiqəsinin nömrəsi)

Hüquqi yardım göstərilən şəxs: ____________
(Soyadı, adı və atasının adı/Hüquqi şəxsin adı və VÖEN-i)

Tapşırığın məzmunu və işin mərhələsi: ____________

Tapşırığın yerinə yetirildiyi təşkilat: ____________

Vəkilin imzası: ____________

Vəkil qurumunun rəhbərinin imzası və möhürü (fərdi qaydada fəaliyyət göstərən vəkil): ____________



Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin 27.09.2018-ci il tarixli qərarı ilə təsdiq edilmişdir.

AZƏRBAYCAN RESPUBLİKASININ VƏKİLLƏR KOLLEGİYASI

VƏKİL ORDERİ

Tarixi: __ / __ / 20__

Vəkil qurumu (fərdi qaydada fəaliyyət göstərən vəkil): ____________
Adı, ünvanı, telefon nömrəsi (soyadı, adı və atasının adı)

Müqavilənin tarixi: ____________ Müqavilənin nömrəsi: ____________

Vəkil ____________
(Soyadı, adı, atasının adı və vəkil vəsiqəsinin nömrəsi)

Hüquqi yardım göstərilən şəxs: ____________
(Soyadı, adı və atasının adı/Hüquqi şəxsin adı və VÖEN-i)

Tapşırığın məzmunu və işin mərhələsi: ____________

Tapşırığın yerinə yetirildiyi təşkilat: ____________

Vəkilin imzası: ____________

Vəkil qurumunun rəhbərinin imzası və möhürü (fərdi qaydada fəaliyyət göstərən vəkil): ____________

Məlum olduğu kimi, Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin 27.09.2018-ci il tarixli qərarı ilə "Vəkil orderi və order markası haqqında" Əsasnamə qəbul olunmuşdur.

Əsasnamə ilə vəkil orderinin yeni nümunəsi və ilk dəfə olaraq vəkil orderinin həqiqiliyinin müəyyən edilməsi məqsədilə order markasının forması təsdiq olunmuşdur.

Rəyasət Heyətinin qərarına uyğun olaraq, 01.02.2019-cu il tarixdən etibarən respublika üzrə yeni vəkil orderinin və order markasının istifadəsinə başlanılacaqdır.

Əsasnaməyə əsasən, 2 növdə vəkil orderi mövcuddur. Onlardan biri dövlət hesabına göstərilən hüquqi yardıma görə verilən order, digəri isə müqavilə əsasında təqdim edilən orderdir. A4 formatlı bu orderlər öz rənglərinə görə fərqlənirlər. Dövlət hesabına göstərilən hüquqi yardıma görə verilən order çəhrayı, müqavilə əsasında təqdim edilən order isə yaşıl rəngdədir. Yeni orderlər 2 nüsxədə tərtib olunur və vəkil qurumunun rəhbərinin və ya fərdi qaydada fəaliyyət göstərən vəkilin möhürü ilə təsdiqlənir.

Order markasına gəldikdə isə qeyd olunmalıdır ki, order markaları yalnız müqavilə əsasında təqdim edilən yaşıl orderlərə yapışdırılır. Bundan başqa, order markaları xüsusi mühafizə nişanı ilə qorunur. Belə ki, markaya xüsusi cihazla - ultrabənövşəyi şüalar altında baxdıqda orada Dövlət gerbinin həkk olunduğunu müəyyən etmək olar. Müqavilə əsasında təqdim edilən yaşıl orderin unikallığını order markasının nömrəsi təmin etdiyi halda, dövlət hesabına göstərilən hüquqi yardıma görə verilən çəhrayı orderin unikallığını təmin etmək üçün orderi dolduran şəxs onu özü nömrələyir.

Bununla əlaqədar, artıq 01.02.2019-cu il tarixdən etibarən aşağıdakı şəkillərdə təqdim olunmuş vəkil orderləri və markası nümunəsinə uyğun olmayan və müvafiq olaraq vəkil qurumunun rəhbərləri və ya fərdi qaydada fəaliyyət göstərən vəkillər tərəfindən rəsmiləşdirilməmiş orderlərin qəbul edilməməsini, eyni zamanda bu qaydaları pozaraq köhnə nümunəli order təqdim etmiş vəkillər, habelə yarana biləcək əlavə suallar barədə Vəkillər Kollegiyasının Rəyasət Heyətinə aşağıdakı nömrə vasitəsilə məlumat verməyinizi xahiş edirik: **+994 12 594 14 95**

## BİLDİRİŞ

"Azərbaycan İnvestisiya Şirkəti" ASC 2019-cu il üçün dəftərxana, təsərrüfat mallarının və kartriclərin satın alınması, doldurulması və printerlərin təmiri xidmətlərini kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir.

Maraqlanan şirkətlər (+994 12) 488 80 10 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 17 yanvar 2019-cu il saat 17:00-dək qəbul olunur.

***Tender komissiyası***

*Təkrar*

# "Azərpoçt" MMC tabeli poçt müəssisələrinin təminatı üçün *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**
**LOT 1.** Bağlama qutularının alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 72 ünvanında yerləşən "Azərpoçt" MMC-dən (əlaqələndirici şəxs: İsmayılov Oktay; telefon: 493-56-00 (240)) ala bilərlər.

**I LOT üzrə - 300 manat**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

**"Azərpoçt" MMC**
**Kod: 690001**
**M/H: AZ76NABZ01350100000000094944**
**VÖEN: 9900037711**
**SWIFT: AZPOAZ 22**
**"Azərpoçt" MMC**
**VÖEN: 9900037711**
**Hesablaşma hesabı:**
**AZ82AZPO99995381000420000125**

İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün ərizə;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətinin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərfin açıldığı gündən sonra 60 bank günü müddətində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir il ərzində maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə peşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **31 yanvar 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və zəmanətinə isə möhürlənmiş ikiqat zərfdə **11 fevral 2019-cu il saat 18:00-a** qədər Üzeyir Hacıbəyli küçəsi, 72 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri **12 fevral 2019-cu il saat 11:00-da** Üzeyir Hacıbəyli küçəsi, 72 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

Lənkəran Dövlət Universitetinin "Azərbaycan" qəzetinin 04 dekabr 2018-ci il tarixli 273 (8000) nömrəli və 18 dekabr 2018-ci il tarixli 285 (8012) nömrəli sayında dərc olunmuş LOT-1.1 saylı tədris korpusunda digər tikililərin inşası işləri üzrə ilkin sənədlərinin təqdim olunması 15 fevral 2019-cu il saat 17:00-a qədər, tender təklifləri və bank təminatı sənədlərinin təqdim olunması 15 fevral 2019-cu il saat 17:00-a qədər, zərflərin açılma vaxtı isə 18 fevral 2019-cu il saat 15:00-a qədər uzadılır.

Əlaqələndirici şəxs: Alxasov Samir Müseyib oğlu, tel.: (025) 255 14 80, ünvan: AZ 4200, Lənkəran şəhəri, H.Aslanov xiyabanı-50, faks: (025) 2552786; **www.lsu.edu.az:** office@lsu.edu.az

***Tender komissiyası***

## Göyçay Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyi 2019-cu il üçün kotirovka sorğusu elan edir

1. Dəftərxana ləvazimatları
2. Təsərrüfat xərcləri
3. Cari təmir
4. Əsaslı təmir
5. Elektrik materialları
6. Yumşaq inventar
7. Bərk inventar
8. Avadanlıq
9. Digər maşın və avadanlıq
10. Odun yanacağı
11. Məşğələ ləvazimatları

**Əlaqə telefonu: 274-12-29**

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi "cijournal.az", "stj.sam.az", "sam.az" və "sam.gov.az" saytlarının təhlükəsizliyinin proqram təminatının kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir.

Maraqlanan təşkilatlar 596-08-50 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 18.01.2019-cu il tarixinədək qəbul olunur.

**Ünvan: AZ10005, Bakı şəhəri, M.İbrahimov küçəsi, 8**

***Tender komissiyası***

bakcell

abunəçilərinin nəzərinə

"Bakcell" MMC öz abunəçilərinin nəzərinə çatdırır ki, ədalətli istifadə qaydasını təmin etmək məqsədilə 25 yanvar 2019-cu il tarixindən etibarən, "DaimOnline" tariflərində sosial media üçün təqdim olunan aylıq trafikin həcmi 20 qiqabayt təşkil edəcək.

# Beynəlxalq aləm

## İranda yük təyyarəsi qəzaya uğradı

İranın paytaxtı Tehranın yaxınlığında Boeing-707 yük təyyarəsi qəzaya uğramışdır. Bu barədə İSNA informasiya agentliyi xəbər verir. "Fars" agentliyinin xəbərinə görə, təyyarədəki 16 nəfərdən cəmi biri sağ qalmışdır.

İran ordusuna məxsus yük təyyarəsi Qırğızıstanın paytaxtı Bişkekdən Kərəc şəhərinin "Payam" beynəlxalq hava limanına uçurmuş. Lakin təyyarə səhvən həmin şəhərdəki "Fəth" aeroportuna enməyə başlamışdır. Enmə zamanı pilot idarəetməni itirmiş və təyyarə uçuş-enmə zolağının kənarına yuvarlanaraq yaşayış evlərinə çırpılmışdır. Əhali arasında tələfat barədə məlumat verilmir.

## Tramp Türkiyəni hədələdi

ABŞ Prezidenti Donald Tramp Amerika qoşunları Suriyadan çıxarıldıqdan sonra Ankaranın suriyalı kürdlərə qarşı əməliyyata başlayacağı təqdirdə Türkiyəni viran etməklə hədələmişdir.

Ağ evin başçısı bununla bağlı Twitterdəki səhifəsində yazmışdır: "Onlar kürdlərə hücum etsə, biz Türkiyəni iqtisadi cəhətdən məhv edəcəyik". Tramp əlavə etmişdir ki, kürdlər də öz növbəsində Türkiyəni təxribata çəkməməlidirlər. O vurğulamışdır ki, 20 millik (təxminən 32 kilometr) bufer zona yaratmaq lazımdır. Rəsmi Ankara ABŞ liderinin bəyanatına sərt reaksiya vermişdir. Türkiyə Prezidentinin mətbuat katibi İbrahim Kalın bildirmişdir ki, Türkiyə kürdlərin YPG/PKK terrorçu təşkilatı ilə bir tutmaq olmaz. Türkiyə suriyalı kürdləri həm İŞİD, həm də YPG/PKK terrorçularından müdafiə etmək niyyətindədir. O əlavə etmişdir ki, Türkiyə Suriyanın şimalında terrorçu təşkilatlara qarşı əməliyyata hər an başlaya bilər.

## Amerikalıların 56 faizi Meksika ilə sərhəddə divarın əleyhinədir



Amerikalıların əksəriyyəti ABŞ-la Meksika arasında sərhəddə divarın inşasını dəstəkləmir. CNN teleşirkətinin sifarişi ilə SSRS xidmətinin keçirdiyi sorğunun nəticələri buna dəlalət edir.

Sosioloji tədqiqatın iştirakçılarının 56 faizi Meksika sərhədi boyunca divar tikməyi lazım bilmir. Bu addımı respondentlərin 39 faizi dəstəkləyir.

Tədqiqatın iştirakçıları həm də ABŞ hökumətinin işinin üç həftədən çoxdur qismən dayandırılmasına görə kimin təqsirli olması ilə bağlı sualı cavablandırmışlar. Respondentlərin 55 faizi günahı Donald Trampın üzərinə düşür. 32 faiz Konqresdəki demokratları təqsirli bilir. Eyni zamanda 9 faiz bildirmişdir ki, həm Amerika lideri, həm də demokratlar yaranmış vəziyyətə görə məsuliyyət daşıyırlar.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Milli Məclisin deputatı Aqil Abbasa atası **SİRACƏDDİN HƏSƏNOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və konfederasiyanın İcraiyyə Komitəsi Bələdiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Məhərrəm Xəlilova atası **HƏSƏN XƏLİLOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azneftkimyamaş" ASC İdarə Heyətinin sədri Əli Qaraxanov uzun illər "Zabrat Maşınqayırma Zavodu" TASC-nin rəhbəri vəzifəsində çalışmış **SİRACƏDDİN HƏSƏNOVUN** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

"Azneftkimyamaş" ASC-nin rəhbərliyi və kollektivi maşınqayırma sənayesində rəhbər vəzifələrdə çalışmış **SİRACƏDDİN HƏSƏNOVUN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Bakı Dövlət Universitetinin rektorluğu BDU-nun Qazax filialının direktoru, əməkdar elm xadimi, professor **VÜSƏT ƏFƏNDİYEVİN** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Sumqayıt Dövlət Universitetinin rektoru, professor Elxan Hüseynov və universitetin kollektivi Bakı Dövlət Universitetinin Qazax filialının direktoru, professor **VÜSƏT ƏFƏNDİYEVİN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7718
Sifariş 131
Qiyməti 40 qəpik